Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

20 MAY 2020-ci il

№ 81 (4212)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# AMULSAR QIZIL YATAĞINDA QƏRB ŞİRKƏTLƏRİ İLƏ PUL QAZANAN PAŞİNYAN QAFQAZ XALQLARINI ZƏHƏRLƏMƏK YOLU TUTUR...

■ səh. 7 ■

Bakıda gün ərzində 500, ildə 150 min vətəndaşa əsl xidmət edəcək mərkəz fəaliyyətə başladı - Prezidentin və birinci xanımın iştirakı ilə

■ səh. 8-9 ■

Faşizm sevgisi ermənilərin İsrail arzularını da puç edir... "Israel HaYom" qəzeti Prezident Əliyevin sözlərindən sitat gətirdi

■ səh. 10 ■

Azərbaycanın artan qüdrəti Ermənistanı getdikcə daha zəif duruma salır - İrəvan danışıqlarda ona diqtə edilənləri qəbul etmək zorunda...

■ səh. 6 ■

"Putin terrorçudur və qisas almalıyıq" - Erməni mediasında idarə olunan anti-Putin kampaniyası...

■ səh. 5 ■

Ermənistan Dağlıq Qarabağda bütün tarix-mədəniyyət abidələrinə qarşı genosid aparır

■ səh. 11 ■

Pandemiya ilə mübarizədə vətəndaş məsuliyyətsizliyi halları - 11-17 mayda 755 yoluxma, kiçik göstərici deyil...

■ səh. 3 ■

Dolların yeni çöküşü nefti daha sürətlə bahalaşdırır - 50 dollarlıq həddi keçməsi mümkün sayıldı

■ səh. 13 ■

Metropolitendə kütləvi virusa yoluxma təhlükəsi gedərək artır - sosial məsafə gözlənilmir, fiziki təmaslar çoxalır...

■ səh. 15 ■




■ səh. 3 ■

## Ayın sonu 8 qeyri-iş günündə yoluxma risqinin artımını necə önləmək olar - Azərbaycan yeni təhlükədə...



Postpandemiya dövrü üçün Azərbaycan-Rusiya əməkdaşlığının yeni perspektivi açılıb - Əliyev-Putin danışığından çıxan real nəticə...

■ səh. 9 ■



Surət Hüseynov «mən istədim, Elçibəy prezident oldu» dedi, reaksiyalar sərt oldu...

■ səh. 5 ■

DİN-in media və sosial şəbəkə fəallarına ən yeni müraciəti - Ehsan Zahidovun DİN adından çağırışına hər kəs əməl etsə...

■ səh. 4 ■

■ səh. 2 ■

"Ermənilərə hərbi gücümüzü hiss etdirməliyik"



■ səh. 7 ■

Ermənistan koronavirusla ən pis mübarizə aparan ölkə kimi - 5,9 faiz dünya rekordu sayıla bilər



■ səh. 12 ■

Koronavirus dövründə iqtisadiyyata sərmayə qoyuluşuna görə Azərbaycan nisbətən yaxşıların sırasında - azalma cəmi 0,5 faiz...



■ səh. 12 ■

Kənd sektorunda subsidiyalaşdırmanın yeni qaydaları - Prezident fərmanı fermerləri nə qədər xərcdən azad edəcək...



■ səh. 14 ■

Restoranlar açıldı - aşpaz və işçilərin koronavirus testindən keçmələri məsələsi hələ açıq qalır



### Pandemiya dövründə Prezidentin aztəminatlı ailələrə dəstəyini Sabirabad sakinləri - Fatma Əskərova, Sevinc Nuriyeva və Əliyoldaş Əkbərov belə qiymətləndirdi...

**Prezident İlham Əliyevin tapşırığına əsasən, pandemiya dövründə aztəminatlı ailələrə yardımlar göstərilməsi bu kateqoriyadan olan vətəndaşların sosial rifahına müsbət təsir göstərir.**



Sabirabad rayonundan Fatma Əskərova, Əliyoldaş Əkbərov və Sevinc Nuriyeva Prezidentə yazdıqları məktubda bu dəstəyi minnətdarlıqla vurğulayırlar: "Bizi qoruduğunuza, xalqımızın xoşbəxt sabahı naminə çəkdiyiniz zəhmətlərə görə Sabirabad rayonunun sakinləri adından Sizə təşəkkür edirik. Bu qayğılı günlərdə aztəminatlı ailələr unudulmayaraq onlara yardım edilir. Hər birimiz Sizi yanımızda hiss edirik.

Sizə uzun ömür, cansağlığı və bərəkətli ömür arzu edirik. Gələcəyiniz nurlu, bütün işləriniz uğurlu olsun. Çox şükür ki, varsınız. Yaşasın Azərbaycan və onu sevənlər" - deyə məktub müəllifləri yazırlar.

*Xəbər xidməti*

### Bir qrup İsmayıllı sakini pandemiya dövründə əhaliyə ərzaq yardımı barədə Prezidentə məktub yazdı

**"...Karantin rejimi ilə əlaqədar işə gedə bilməyən insanlara birdəfəlik ödəmənin, Heydər Əliyev Fondu tərəfindən kasıb ailələrə ərzaq yardımlarının verilməsi çox böyük əhəmiyyət daşıyır.**

Bu, Azərbaycan vətəndaşlarına olan qayğının və sevginin təzahürüdür. Xalqımızın dar günündə hər zaman onun yanında oldunuz, ehtiyaclarının ödənilməsini təmin etdiniz. Ulu Tanrı Sizi heç vaxt darda qoymasın" - bu fikirlər İsmayıllı şəhər sakinləri Manafov Əsgər Əmirxan oğlu, Qasımov Elşad Telman oğlu, Ağayev Yaşar Təvəkkül oğlu, Məmmədova Sahilə Cavan qızı və başqaları tərəfindən Prezident İlham Əliyevə ünvanlanan müraciətdə əksini tapıb.

*Xəbər xidməti*

# Azərbaycanda 131 nəfər koronavirusa yoluxdu, 143 nəfər sağaldı, 1 nəfər vəfat etdi

**Azərbaycan Respublikasında 131 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 143 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, keçirilmiş miokard infarktı, qaraciyər çatışmazlığı və xroniki böyrək çatışmazlığı olan 1949-cu il təvəllüdlü vətəndaş vəfat edib.



Hazırkı dövrədək ölkəmizdə 3518 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 2198 nəfər müalicə olunaraq sağalıb, 41 nəfər vəfat edib, 1279 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 41 nəfərin vəziyyəti ağır, 59 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 240.220 test aparılıb.

# Daxili İşlər Nazirliyi bəzi sahələrdə yoxlamaların bərpa olunması barədə məsələ qaldırıb

**Daxili İşlər Nazirliyi bəzi sahələrdə yoxlamaların bərpa olunması barədə məsələ qaldırıb.**

"Trend"in məlumatına görə, bunu Azərbaycanın İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatoru, Daxili İşlər nazirinin birinci müavini, polis general-mayoru Seyfulla Əzimov parlamentin mayın 19-da keçirilən plenar iclasında deyib.

Onun sözlərinə görə, müvafiq qanunvericilik aktlarına əsasən sahibkarlıq subyektlərində yoxlamalar dayandırıldığı üçün son illər kənd təsərrüfatı, ictimai iaşə və digər sahələrdə məcburi əmək faktlarının aşkarlanması üzrə monitorinqlər aparılmır. Ancaq məsələnin əhəmiyyəti nəzərə alınaraq həmin yoxlamaların bərpa olunması üçün Daxili İşlər Nazirliyi tərəfindən aidiyyəti üzrə məsələ qaldırılıb.



# Aydın Quliyev: "Ermənilərə hərbi gücümüzü hiss etdirməliyik"

**"Paşinyanın Dağlıq Qarabağda heç bir hüquqi əsası olmayan "inauqurasiyada" iştirakı əleyhinə kəskin cavab tədbirlərinin görülməsi zəruridir. Lakin işğal olunmuş ərazilərimizi dərhal bombalamaq uğurlu cavab sayıla bilməz".**




*"Bu üç dövlətin Minsk Qrupundakı təmsilçiləri Paşinyanın "inauqurasiyada" iştirakını öncədən ifşa edən bəyanatla çıxış etməlidirlər"*

Bunu Versus.az-a politoloq Aydın Quliyev Paşinyanın 21 mayda Şuşada keçirəcəyi "inauqurasiya" mərasimi ilə bağlı açıqlamasında bildirib.

Politoloq hesab edir ki, ölçülüb-biçilmədən atılan hər bir addım bizim özümüz üçün ziyanlı ola bilər. Onun fikrincə, problemi bir an içində həll etməyə hesablanmış addımlar bizə faydadan çox, fəlakət gətirə bilər: "Lakin ermənilərin işğal altında qalan ərazilərimizdə özbaşınalıq etmələrinə qarşı çoxlu cavab xarakterli tədbirlər həyata keçirmək olar. Məsələn, Ermənistan son günlər koronavirusun yayılmasına görə az qala dünya lideri olub. Bütün dünya üzrə virusa yoluxma cəmi 1-3 faiz artdığı halda, Ermənistanda proses "fontan vurur" - 5-8 faiz. Ümumdünya Səhiyyə Təşkilatının diqqətini ermənilərin bu ağır dövrdə yoluxma risqini artıran tədbirlər həyata keçirməsinə yönəldib, Ermənistanı beynəlxalq təzyiq altında qoymaq lazımdır".

A.Quliyev, eyni zamanda, vurğulayıb ki, Minsk Qrupunun həmsədr ölkələrinin prezidentlərinə rəsmi müraciət edərək, Paşinyanı təcavüzkar siyasətə açıq dəstək hərəkətlərindən çəkindirməyə yönəltmək lazımdır: "Bu üç dövlətin Minsk Qrupundakı təmsilçiləri Paşinyanın "inauqurasiyada" iştirakını öncədən ifşa edən bəyanatla çıxış etməlidirlər. Paşinyan bu hərəkətlə, əslində, regionda sülhün bərpa olunma perspektivlərini, sadəcə, məhv edir. Odur ki, bu günlərdə həmsədr ölkələrin xüsisilə məsuliyyət daşıması Azərbaycan tərəfdən açıq qeyd edilməlidir".

**A.Quliyev bildirib ki, hazırda Azərbaycan Ordusunun keçirdiyi hərbi təlimlərin hücum xarakterli olduğu barədə dünyaya aydın mesajlar verilməlidir: "Rəsmi dövlət və ictimai təbliğat tezislərində müəyyən dəyişikliklər etmək, ermənilərə hiss etdirmək lazımdır ki, Ermənistan prezidentinin qərargahını hətta Xankəndinə köçürsələr də, ərazilər mütləq qaytarılacaq".**

# Ayın sonu 8 qeyri-iş günündə yoluxma risqinin artımını necə önləmək olar - Azərbaycan yeni təhlükədə...

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Ramazan bayramı ilə əlaqədar olaraq ölkədə 4 gün komendant saatı tətbiq ediləcəyini açıqlayıb. Ölkə başçısı məhdudiyyətin 23-24-25 və 26 may tarixlərində 81 əyalətdə qüvvədə olacağını deyib.**

15 əyalət arasında gediş-gəliş qadağası isə daha 15 gün uzadılıb. Cəzaçəkmə müəssisələrində görüşlər iyundan etibarən bərpa olunacaq. Qeyd edək ki, bizdə də bu ayın sonu 8 qeyri -iş günü elan olunub və bu, qadağaların yumşaldığı dönəmə təsadüf edir. İndiki statistika isə yoluxmanın artdığını göstərir. Kütləvi yoluxmanın qarşısını almaq baxımından bayram günləri ilə bağlı bizdə hansısa əlavə tədbirin görülməsinə ehtiyac varmı?

Koronavirus pandemiyası ilə bağlı ciddi araşdırmalar aparan "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hazırda həm də təbiətin gözəl vaxtıdır:"Bu da insanları daha çox təbiət qoynunda vaxt keçirməyə istiqamətləndirir. Uzunmüddətli karantin rejiminə əməl edən insanlar, təbiidir ki, qaydaların yumuşalmasından istifadə etməyə çalışacaq. Təbiətə, rayonlara getməyə can atanlar çoxluq təşkil edəcək. Bu da vəziyyəti yenidən gərginləşdirə, yəni epidemiya ocaqlarının əmələ gəlməsinə səbəb ola bilər. Maarifləndirmə işi davam etməlidir. Qeyri-iş günlərinin çoxluğunu nəzərə alsaq, maarifləndirməni daha da gücləndirməliyik. İnsanlara izah olunmalıdır ki, pandemiya tam bitməyib, sadəcə prosesin sonuna yaxınlaşırıq. Həddən artıq ehtiyatla yanaşmalıyıq. Bu müddətdə də karantin qaydalarında olan bəzi tələblərə mütləq riayət olunmalıdır. Bura sosial məsafəni saxlama, maskalardan istifadə, kütləvi toplantıların olmamasını misal göstərə bilərik. Bir də turizm üçün şərait yaradan obyektlərə xüsusilə tapşırılmalıdır ki, kütləviliyin qarşısını alsınlar".

Rasim Quliyevin sözlərinə görə, pandemiya dönəmində dünyanın bir çox ölkələrində sərt tədbirlər, qadağalar qoyulanda, Azərbaycanda komendant saatına ehtiyac olmadı:

"Çünki əvvəlcədən önləyici tədbirlər görülümüşdü. Sonrakı proseslər isə ciddi nəzarət altında saxlanırdı və epidemioloji vəziyyət yaxından izlənirdi. Güman edirəm ki, indiki mərhələdə də bizdə komendant saatının tətbiqinə ehtiyac olmayacaq. Yenə qeyd edirəm ki, ehtiyat tədbirlərini mütləq görməliyik. Xüsusilə də bu dönəmdə fəaliyyətdə olacaq obyektlərin iş rejiminə ciddi nəzarət edilməlidir".

***Rasim Quliyev:** ”Xüsusilə də bu dönəmdə fəaliyyətdə olacaq obyektlərin iş rejiminə ciddi nəzarət edilməlidir”*




***Məhəmmədəli QƏRİBLİ***

# Pandemiya ilə mübarizədə vətəndaş məsuliyyətsizliyi halları - 11-17 mayda 755 yoluxma, kiçik göstərici deyil...

***Adil Qeybulla:** ”...çox şey vətəndaşların davranışından asılı olacaq”*

**Karantin rejiminin yumşaldılması ilə bağlı yoluxma sayı artıb. Uzun müddət ciddi karantin rejimində yaşamaq da mümkün deyil. Bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) şöbə müdiri Yaqut Qarayeva Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi mətbuat konfransında deyib.**

## ”Hətta maska taxmaq əllərin dezinfeksiya edilməsindən daha önəmlidir”

Onun sözlərinə görə, 11-17 may tarixləri arasında 755 yoluxma olub və bu, bir həftə üçün böyük rəqəmdir: "Bu indiyədək həftə ərzində ən çox yoluxma halıdır. Biz karantin qaydalarını yumşaldırıq. Lakin tibbi olaraq bu gündən sonra nə baş verəcəyi insanlardan asılıdır. Xəstə sayı artarsa, onlara yetəri qədər xidmət göstərmək çətin olacaq. Modul tipli xəstəxanaların açılması ilə çarpayı sayı artıb, son avadanlıqlar gətirilib, maska problemimiz qalmayıb. Vətəndaşlar qaydalara əməl etməsə, vəziyyət yenidən pisləşə bilər".

Məlumat üçün qeyd edək ki, Nazirlər Kabineti aprelin 27-dən karantin rejimi ilə bağlı tətbiq edilən məhdudiyyətlərin qismən yumşaldılması barədə qərar qəbul edib. Nazirlər Kabineti yanında Operativ Qərargah mayın 18-dən karantin rejiminin yenidən yumşaldılması barədə qərar qəbul edib. Qərara görə, mayın 18-dən SMS icazə ilə insanların evdən çıxması, xüsusi vəsiqə və arayışlarla işə çıxma sistemi ləğv edilib. 65-dən yuxarı yaşı olan insanların evdən çıxmasına tətbiq edilən qadağa aradan qaldırılıb. Restoranlar, kafelər, ictimai iaşə obyektləri, parklar açılır. Bununla yanaşı, kütləvi tədbirlərin keçirilməsinə tətbiq edilən qadağalar qüvvədə qalacaq. 10 nəfərdən çox insanın bir yerə toplanması qadağandır. Ölkəyə giriş-çıxışa tətbqi edilən qadağa mayın 31-dək qüvvədədir.

Görünən odur ki, vətəndaşlar qaydalara əməl etməsə, vəziyyət yenidən pisləşə bilər. Maraqlıdır, bəs ekspertlər hazırkı vəziyyəti necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən tibb elmləri doktoru, professor Adil Qeybullanın sözlərinə görə, çox şey vətəndaşların qaydalara nə dərəcədə əməl edəcəyindən asılı olacaq: "Azərbaycan koronavirusun ikinci mərhələsinə daxil olur. Mərhələ ondan ibarətdir ki, karantin tədbirləri yumşaldılır və biz yeni situasiyaya keçirik. Yeni situasiyada karantin davranışlarına ciddi əməl olunmalıdır. Hazırda olan yoluxmalar SMS razılaşmaları dövründə insanların qonaq getməsi, ziyafətlər təşkil etməsi və sair kimi tədbirlərdən qaynaqlanır. Ancaq indiki dövrdə insanların maska taxması və məsafə gözləməməsi mütləq fəsadlara yol açacaq. Fikrimcə, bu səbəbdən yoluxma sayı artacaq. Ona görə də insanlar ikinci mərhələdə daha diqqətli olmalıdırlar. Xüsusən də maska taxmaq vacibdir.

Çünki müəyyən edilib ki, koronavirus havadan damcı yolu ilə keçir. Bəzən kalloid formasında bu virus bir-iki saat havadan asılı qalır. Ona görə də insanların maska taxması çox önəmlidir. Hətta maska taxmaq əllərin dezinfeksiya edilməsindən daha önəmlidir. Ona görə də hesab edirəm ki, vətəndaşlar karantin qaydalarına ciddi əməl etməlidirlər. Bəzi şeylər insanlarda vərdişə çevrilməlidir. İnfeksiyanın ikinci dalğasının sönməsi üçün maksimum səylər göstərilməlidir. Belə olmasa, payız fəslində qripin yayılması yoluxmanı bir az da genişləndirə bilər. O baxımdan da çox şey vətəndaşların davranışından asılı olacaq".




***Vidadi ORDAHALLI***

# DİN-in media və sosial şəbəkə fəallarına ən yeni müraciəti - Ehsan Zahidovun DİN adından çağırışına hər kəs əməl etsə...

**"Kütləvi informasiya vasitələrinin nümayəndələrindən və sosial şəbəkə istifadəçilərindən xahiş edirəm ki, daxili işlər orqanları əməkdaşlarının, o cümlədən, Daxili Qoşunların hərbi qulluqçularının xidməti fəaliyyətinə dair qeyri-rəsmi mənbələrdən əldə etdikləri məlumatları, anonim çəkilmiş foto-videogörüntüləri Daxili İşlər Nazirliyinin Mətbuat xidməti ilə dəqiqləşdirsinlər".**

***Azər Həsrət:*** *"Məlumdur ki, adıçəkilən qurumun Mətbuat xidməti media ilə açıq işləyir"*

***Müşfiq Ələsgərli:*** *"Media nümayəndələri Azərbaycan polisi ilə bağlı istənilən məlumatı mütləq rəsmi mənbədən dəqiqləşdirməli, sonra onu ictimailəşdirməlidirlər"*



Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin yaydığı məlumatda qeyd olunur. Bildirilir ki, razılaşdırılmış, rəsmi münasibət bildirilmiş məlumatların, foto-videoların çapı KİV ilə DİN-in Mətbuat xidməti arasında olan işgüzar əlaqələrin inkişafı, eləcə də ictimaiyyət üçün daha faydalı ola bilər: "Əminəm ki, hörmətli media nümayəndələri və sosial şəbəkələrdə aktiv olan vətəndaşlarımız mənim bu müraciətimi anlayışla qarşılayacaqlar".

Siyasi şərhçi Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, DİN-in media nümayəndələrinə və sosial şəbəkə istifadəçilərinə müraciətini təqdir edir: "Məlumdur ki, adıçəkilən qurumun Mətbuat xidməti media ilə açıq işləyir.

Pandemiya dövründə Azərbaycan polisinin fədakarlığını ayrıca vurğulamaq lazımdır. Lakin polislərin məlum fədakarlığı bəzi şəxsləri ciddi şəkildə narahat edir. Həmin şəxslər Azərbaycan polisini gözdən salmaq üçün uydurma və təsadüfi görüntüləri paylaşıb, ictimai rəyi çaşdırmaq istəyirlər. Bu səbəbdən də hesab edirəm ki, Daxili İşlər Nazirliyinin məlum çağırışını təqdir etmək lazımdır. Media nümayəndələri Azərbaycan polisi ilə bağlı istənilən məlumatı mütləq rəsmi mənbədən dəqiqləşdirib sonra onu ictimailəşdirməlidirlər. Təəssüf ki, biz bunun əksi ilə rastlaşırıq. Bəzən elə hal olur ki, 10-15 il əvvəl baş vermis hadisəni yenidən ictimailəşdirib sosial şəbəkədə paylaşırlar. Və ya başqa ölkədə baş vermis polis şiddətini paylaşaraq bunun Azərbaycan polisi tərəfindən törədildiyini iddia edirlər. Bu kimi hallara son qoyulması üçün Daxili İşlər Nazirliyi media təmsilçilərinə və sosial şəbəkə istifadəçilərinə çağırış edib".

Həmsöhbətimiz onu da əlavə etdi ki, Daxili İşlər Nazirliyi medianı yanlış məlumat yaymağa çağırır: "Onu da qeyd edim ki, adıçəkilən qurumun çağırışı olmasa belə, jurnalist məlumatı dəqiqləşdirdikdən sonra onu tirajlamalıdır".

Mətbuat Şurası sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli qəzetimizə açıqlamasında qeyd etdi ki, sosial şəbəkədə polislə bağlı xoşagəlməz görüntülər yayılır. Araşdırma zamanı məlum olur ki, həmin görüntülər təxribat məqsədilə yayılır: "Media təmsilçiləri bu kimi halları yaymazdan öncə rəsmi mənbədən dəqiqləşdirməli, sonra ictimailəşdirməlidirlər. DİN-in bu müraciətindən sonra qeyd olunan mövzuda onlara müraciət edənlərin sayı kifayət qədər artacaq".

***Günel CƏLİLOVA***

# Baş prokurorun yeni köməkçiləri təyin olundu

**Baş prokuror Kamran Əliyevin imzaladığı əmrlə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsinin böyük prokuroru, baş ədliyyə müşaviri Elnur Musayev tutduğu vəzifədən azad edilərək Baş prokurorun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi vəzifəsinə təyin olunub.**



Baki-xeber.com xəbər verir ki, bu barədə Baş Prokurorluğun Mətbuat Xidmətinin rəhbəri Eldar Sultanov sosial şəbəkədə məlumat yayıb. Bildirib ki, Elnur Musayev Bakı Dövlət Universitetinin, Böyük Britaniyanın Şeffild Universitetinin hüquq fakültələrini və Beynəlxalq Antikorrupsiya Akademiyasını fərqlənmə ilə bitirərək ikinci magistr dərəcəsini qazanıb.

O, 1998-ci ildən prokurorluq orqanlarında müxtəlif vəzifələrdə, o cümlədən 2005-2020-ci illərdə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsində böyük prokuror vəzifəsində işləyib.

Beynəlxalq ekspert qismində BMT-nin, Avropa Şurasının və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) monitorinq mexanizmlərində 14 ölkənin, o cümlədən Meksika, Norvec, Polşa, Rumıniya, Serbiya, Ukrayna və digər ölkələrin monitorinqini həyata keçirmişdir. Avropa Şurasının çirkli pulların yuyulması sahəsində Moneyval mexanizmi çərçivəsində Xorvatiya üzrə montorinq eksperti seçilmişdir. Avropa Birliyinin Tvinninq layihəsinin əlaqələndicisi olmuş, Avropa Şurasının bir neçə beynəlxalq layihəsini həyata keçirib.

Peşəkar fəaliyyəti dövründə göstərdiyi xidmətlərə görə dövlət təltiflərinə layiq görülmüşdür. İngilis, fransız və rus dillərini sərbəst bilir.

Baş prokurorun digər əmri ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Müabrizə Baş İdarəsinin böyük prokuroru, kiçik ədliyyə müşaviri Emin Nəsibov tutduğu vəzifədən azad edilərək Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi vəzifəsinə təyin olunub.

Emin Nəsibov Bakı Dövlət Universitetinin hüquq fakültəsinin bakalavr və həmin universitetin cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası ixtisası üzrə magistr pillələrində təhsil alıb.

O, 2010-cu ildən prokurorluq orqanlarında müxtəlif vəzifələrdə, o cümlədən 2019-cu ildən Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsində böyük prokuror vəzifəsində işləyib.

Avropa Komissiyasının TAIEX proqramı çərçivəsində İtaliyanın məhkəmə sistemində korrupsiyaya qarşı mübarizə üzrə təcrübənin öyrənilməsi, Avropa İttifaqının Əmlakın bərpası üzrə Qurumların Platforması tərəfindən təşkil edilən virtual valyutalar üzrə təlimlərdə, habelə bir sıra beynəlxalq tədbirlərdə fəal iştirak edib.

Hazırda Beynəlxalq Antikorrupsiya Akademiyasında Antikorrupsiya Təlimləri üzrə magistr proqramı üzrə təhsilini davam etdirir. İngilis və rus dillərini sərbəst bilir.

**Bir vaxtlar Azərbaycanın baş naziri olmuş Surət Hüseynov xaricdə fəaliyyət göstərən internet televiziyalarından birinə müsahibə verib. Deyib ki, Elçibəyin hakimiyyətə gəlməsində özünü cəbhəçi adlandıranların heç birinin onun qədər rolu olmayıb:**

# Surət Hüseynov "mən istədim, Elçibəy prezident oldu" dedi, reaksiyalar sərt oldu...



"Kimə hörmət edirsən, ayağı yer tutan kimi üstünə gəldi. Bu insanlarda belə bir xislət var idi. Amma mən seçki ərəfəsində mövqeyimi ortaya qoydum və "Prezident Elçibəy olacaq" dedim. Hamı da bilirdi ki, mən Elçibəyi dəstəkləyəcəyim təqdirdə o, prezident olacaqdı. Sonra Etibar Məmmədov yanıma gəldi. Mən ona dedim ki, hərəkatda Elçibəy ağsaqqalınız olub, qoy, o namizəd olsun, müharibəni bitirək, sonra siyasi mübarizə apararsız. Yəni mən Etibar Məmmədova "yox" dedim, Elçibəyin prezident seçilməsinə nail oldum. Mən bütün rayonlardakı nümayəndələrimizə tapşırmışdım ki, Elçibəyi müdafiə etsinlər, ona səs versinlər. Bu mənim ona qardaş dəstəyim idi. Amma sonradan mənim üstümə gəldilər. Hansı xislətə malik olduqlarını ortaya qoydular".

Surət Hüseynovun bu açıqlamasına Elçibəy hakimiyyətində təmsil olunan və həmin vaxt AXC-də mühüm postlar tutan şəxslərin münasibətini öyrəndik.

Millət vəkili Fazil Mustafa "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, sabiq baş nazirin danışdıqlarında həqiqət payı azdır:"Deyə bilər ki, mənim həmin prosesə dəstəyim olub. Elçibəyi hakimiyyətə mən gətirdim demək isə cahillikdir. Fikirini ifadə edə bilməməyin göstəricisidir. Elçibəyi hakimiyyətə Surət gətiribsə, o böyüklükdə olan AXC və ya Elçibəyi sevən sadə xalq hardaydı? Bəs Naxçıvanda və ya digər yerlərdə Elçibəyə kimlər səs verib, onları da Surət Hüseynov təşkil edib? Surət Hüseynov həmin dönəmdə cəmiyyətdə geniş tanınmırdı. Yalnız qaldırdığı qiyamdan sonra bir az məşhurlaşdı. Daha cilalanmış bir söz işlədə bilərdi. Desəydi ki, dəstəyi olub, bunu anlayıb normal yanaşmaq olardı. Onun bundan əvvəl də müsahibələri olub və belə naşı fikirlər işlədib. Hər dəfə də belə mövqeyinə görə qınağa tuş gəlib. Ola bilər ki, Elçibəy hakimiyyəti dönəmində ona olan münasibətdən narazı qalıb. Amma ondan sonrakı dönəmdə Surətə münasibət cəbhəçilərdən daha sərt oldu. Görünür, onun yaddaşının həmin hissəsinin "platası" sıradan çıxıb. Bu adam Azərbaycan cəmiyyətinin inkişafına hansı səviyyədə ziyan vurduğunun hələ də fərqində deyil".

***Fazil Mustafa:** "Bu adam Azərbaycan cəmiyyətinin inkişafına hansı səviyyədə ziyan vurduğunun hələ də fərqində deyil"*

***Fərəc Quliyev:** "Tamamilə qeyri-ciddi persona olduğu üçün onun barədə ətraflı danışmaq istəmirəm"*

Elçibəy komandasının önəmli isimlərindən olan Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev də qəzetimizə açıqlamasında Surət Hüseynovun düz danışmadığını bildirdi:"Mən həmin müsahibə ilə tanışam. Təəssüf edirəm ki, yenə köhnəlmiş fikirlərin ətrafında fırlanır. Surət özünü hərəkatçı kimi təqdim edir. O, hərəkatın iştirakçısı olmayıb.

Mən Xalq Cəbhəsini təsis edən 64 nəfərdən biriyəm. Hətta Elçibəyin ətrafındakı ilk 7-liyin kimlərdən ibarət olduğunu da dəqiq bilirəm. O vaxt bizim digər müstəqil təşkilatlarla da əlaqələrimiz olub. Bura "Cənlibel"i, "Varlığ"ı aid edə bilərəm. Həmin vaxt mən Surət Hüseynov adına rast gəlməmişəm. Təsadüfi bir adamdır. Arif Hacıyevin təqdimatı ilə AXC hakimiyyəti dönəmində korpus komandiri də oldu. Mən Surətin ən güclü vaxtında ona sözümü demişəm. Tamamilə qeyri-ciddi persona olduğu üçün onun barədə ətraflı danışmaq istəmirəm. Danışdıqlarına da özündən başqa inanan yoxdur".

***Məhəmmədəli QƏRİBLİ***

---

**"Armenian Report" erməni portalı tərəfindən dərc olunan "Borcda qalmayacağıq" başlıqlı məqalədə Rusiya Prezidenti Vladimir Putin terrorizmdə ittiham olunur. Məqalədə deyilir ki, ruslar Rusiya Federasiyasının hazırkı rəhbərliyi tərəfindən hansı cinayətlərin törədildiyini mütləq öyrənəcəklər:**

# "Putin terrorçudur və qisas almalıyıq" - Erməni mediasında idarə olunan anti-Putin kampaniyası...



***Elman Nəsirov:** "Bu günə qədər Ermənistanın xarici siyasətində konkret bir vektor müəyyən olunmayıb"*

"Qeyd edirəm, söhbət elə bir ölkədən gedir ki, orada bir nəfər öz vətəndaşlarının evlərini uçuraraq hakimiyyətə gəlir və onun addımı qəhrəmanlaşdırılır. Ruslar Rusiya Federasiyasının hazırkı rəhbərliyi tərəfindən hansı cinayətlərin törədildiyini mütləq öyrənəcəklər, amma indi deyil, sonralar orada hakimiyyət dəyişdikdə. Bütövlükdə Rusiyada təxribatçı Markovun hansı "parlaq" epitetlərlə mükafatlandırılmasından danışmıram. Bu fakta və Rusiyanın qaz qiymətlərini qaldırmasına görə Rusiya Prezidenti Nikol Paşinyanla danışmaq istəmir və Azərbaycana təzyiq göstərmir (Rusiya Azərbaycana daha güclü Su-35 və MiQ-35 təyyarələrini təklif edir)".

Müəllif belə nəticəyə gəlir ki, Ermənistan Rusiyadan qisas almalıdır: "Bununla birlikdə qarşılıqlı nəzakət imkanı hər zaman var. Rusiya Federasiyasındakı mövcud rəyin əksinə olaraq, Ermənistan özünün "müttəfiqi"nə cavab verə bilər. Sadəcə, tələsmirik. İntiqam, soyuq bir yemək kimi masaya qoyulur. Hər şeyin vaxtı var, əziz ruslar. Gözləyin, borc içində qalmayacağıq. Yaxşı, ruslar, qarabaşaq yarması, tuşonka və sursat yığın".

Görünən odur ki, Ermənistanın bir sıra media orqanlarında Rusiya Prezidenti Vladimir Putinə yönəlik nifrət kampaniyası daha geniş vüsət almaqdadır. Hətta Rusiya Prezidentini terrorçuluqda belə ittiham etməkdən çəkinmirlər.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən millət vəkili Elman Nəsirovun sözlərinə görə, erməni mətbuatında anti-Putin kampaniyası bir sıra məsələlərdən qaynaqlanır: "Nikol Paşinyanın hakimiyyətə gələndən sonra davranışı göstərirdi ki, onun hakimiyyətdə olduğu müddətdə Ermənistan-Rusiya münasibətləri gərgin olacaq. Xarici siyasətdə ən arzuolunmaz məsələ qeyri-müəyyənlikdir. Məsələ ondadır ki, bu günə qədər Ermənistanın xarici siyasətində konkret bir vektor müəyyən olunmayıb. Həm Rusiya ilə müttəfiqlik edirlər, həm də Qərb istiqamətində konkret addımlar atırlar. Xüsusilə son dövrlər Ermənistan mətbuatında anti-Putin ritorikası daha da güclənib. Putinə qarşı çox ciddi ittihamlarla dolu yazılar yazırlar. İş o yerə gəlib çatıb ki, özlərinin strateji müttəfiqi hesab etdikləri ölkənin Prezidentini terrorizmdə ittiham edirlər. Bu cür siyasət çox pis nəticələrə gətirib çaxara bilər. Yeri gəlmişkən, onu da qeyd edim ki, Rusiya mətbuatında da Ermənistan və Paşinyan əleyhinə yazılar artmaqdadır. Hətta Rusiya Xarici İşlər Nazirliyi səviyyəsində ABŞ-ın Ermənistanda quraşdırdığı laboratoriyaya etiraz edilib. Rusiyalı ekspertlər belə fikirlər səsləndirirlər ki, bu, çoxsaylı xəstəliyin yayılmasında mənbə rolunu oynaya bilər. Rusiya mətbuatında tez-tez Ermənistana satılan qazın qiymətinin artırılması ilə bağlı fikirlər səsləndirilir. Bütün bunlar onu deməyə əsas verir ki, Ermənistanın xarici siyasəti bərbad vəziyyətdədir. Bu sahədə qeyri-müəyyənlik baş alıb gedir. Eyni vaxtda iki stulda oturmaq siyasəti uğursuzdur. Belə olan vəziyyətdə iki ölkə arasında gərginliyin daha da artacağı gözlənir".

*"İş o yerə gəlib çatıb ki, özlərinin strateji müttəfiqi hesab etdikləri ölkənin Prezidentini terrorizmdə ittiham edirlər"*

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Azərbaycanın artan qüdrəti Ermənistanı getdikcə daha zəif duruma salır - İrəvan danışıqlarda ona diqtə edilənləri qəbul etmək zorunda...

**Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə videokonfrans formatında görüş keçirməsi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə hələ də müəyyən ümidlərin olduğunu nümayiş etdirir.**

Ən azı o baxımdan ki, Azərbaycan tərəfi sadəcə danışıqlar xatirinə belə görüşlərin keçirilməsinə qarşı olduğunu dəfələrlə bəyan edib. Eyni zamanda, rəsmi Bakı danışıqlarda konkret sənədlərin müzakirə olunduğunu bildirib və bunu Rusiya xarici işlər naziri Sergey Lavrovun məlum açıqlamaları da təsdiq edir. Qeyd edilənlər fonunda Ermənistanla növbəti görüş keçirilməsinə verilən razılıq xüsusi diqqət cəlb edir.

Bir daha xatırladaq ki, Elmar Məmmədyarov yuxarıda qeyd edilən videokonfrans zamanı erməni həmkarı ilə növbəti görüşə razılıq verib. Belə ki, videokonfransda tərəflər Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinin cari vəziyyətini, eləcə də qarşıdan gələn aylarda, qlobal pandemiya sonrası atılacaq addımları müzakirə edib. Tərəflər pandemiya zəiflədikdən sonra Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Minsk Qrupu həmsədrlərinin vasitəçiliyi ilə növbəti görüşünün keçirilməsi vaxtının və yerinin müəyyən edilməsi üzrə razılaşıb. Ermənistanın özündə bunlar fonunda etiraflar artır ki, İrəvan indi danışıqlarda ən zəif tərəfdir. Erməni siyasi ekspert Arman Melikyan vurğulayır ki, məhz bu səbəbdən indi danışıqlarda baş nazir Nikol Paşinyanın komandası mövqeyini dəyişib. O bildirib ki, Sergey Lavrovun açıqlamaları həm Azərbaycanda, həm də Ermənistanda siyasi gündəmi əhəmiyyətli dərəcədə dəyişib:"Rusiya xarici işlər naziri münaqişənin mərhələli həll versiyasının gündəmdə olduğunu bəyan etdi, bu bizdə müəyyən çaxnaşma yaratdı və Bakıda ruh yüksəkliyinə səbəb oldu. Paşinyan komandası bunları təkzib etməyə çalışsa da, durum tam fərqlidir və Azərbaycanın istəklərinə uyğundur. Ermənistan indi danışıqlarda zəif tərəfdir"

Ekspertlər də hesab edir ki, əslində İrəvan danışıqlarda indi ona diqtə edilənləri qəbul etmək məcburiyyətindədir. Bu bir neçə səbəblə bağlıdır. Əvvəla, Ermənistan sosial-iqtisadi cəhətdən indi daha zəif hala gəlib. Koronavirus pandemiyası isə ölkənin çöküşünü daha da sürətləndirib. COVID-19-un yayılması ilə əlaqədar olaraq Ermənistanda martın 16-dan etibarən fövqəladə vəziyyətin tətbiq edilməsi və onun iyunun 13-nə qədər uzadılması iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyətin əsaslı şəkildə zəifləməsinə səbəb olub. İqtisadi və sosial problemlərin qarşısını almaq məqsədilə hökumət tərəfindən həyata keçirilən tədbirlər isə nəticəsizdir. Xaricdən alınan borcla vəziyyəti düzəltmək də müşkülə çevrilib. Burada bir faktı da nəzərə almaq lazım gəlir ki, Ermənistan iqtisadiyyatının, belə demək olarsa, ayaqda qalmasının əsas səbəbi digər ölkələrdən və maliyyə təşkilatlarından alınmış yardımlar, borclar olub. Lakin indi pandemiya ilə əlaqədar olaraq bütün dünyanı iqtisadi problemlərin bürüməsi və Ermənistana iqtisadi baxımdan əsas dəstək verən Rusiyanın həm virusla bağlı kəskin iqtisadi problemlərlə qarşılaşması, həm də neft gəlirlərinin kəskin azalması onun İrəvana yardım etmək imkanlarını xeyli azaldıb. Digər tərəfdən, ekspert proqnozlarına əsasən, postpandemiya dövründə bir çox kiçik dövlətlərin maliyyə vəsaitlərinə ehtiyacı artacaq və nəticədə güclü rəqabət formalaşacaq. Bu isə son nəticədə borc almaq imkanlarını azaldacaq. Ona görə də hazırkı durumda Ermənistanın məcburi şəkildə artacaq büdcə kəsirini maliyyələşdirmək məqsədilə xarici borc alması əvvəlki qədər asan olmayacaq. Belə vəziyyətdə Ermənistanın iqtisadi durumunu düzəltmək üçün xarici borc yardımlarına da ümidi azalır. Deməli, Ermənistan iqtisadi durumunun düzəlməsi üçün xarici borclara da bir o qədər ümid bağlaya bilməz. Halbuki, Nikol Paşinyanın hakimiyyətə gəlməsində və sonrakı dövrdə öz populyarlığını qorumasında iqtisadi amillərin rolu böyük olub. Serj Sarkisyan hakimiyyətinin dövründə kəskin sosial-iqtisadi problemlərin mövcud olması Ermənistanda məlum inqilabın baş verməsində böyük rol oynayıb. Paşinyanın bu fonda iqtisadi sahədə islahatlar həyata keçirilməsi ilə bağlı vədlər verməsi onun seçilməsinə əsaslı formada təsir edib. Lakin reallıq Paşinyanın iqtisadi vədlərini yerinə yetirməkdə aciz olduğunu nümayiş etdirir. Pandemiyanın yaratdığı problemlər də iqtisadi sahədə verilən vədlərin və planlaşdırılan tədbirlərin həyata keçirilməsini əngəlləyən digər önəmli faktor qismində çıxış edir. Elə bu da hakimiyyət üçün getdikcə ciddi təhdidə çevrilir. Yaranmış iqtisadi problemlərin həllini tapmaması Paşinyan hakimiyyətinin davamlılığını ciddi sual altına alır. Bunu Paşinyan və komandası da yaxşı başa düşür. Onlar aydım görür ki, erməni cəmiyyətini Qarabağ məsələsindən çox iqtisadi, sosial durum maraqlandırır. Bu sosial-iqtisadu durumu yaxşılaşdırmağın yeganə yolu da məhz Qarabağ münaqişəsinin həllindən keçir. Bu səbəbdən ekspertlər Paşinyan iqtidarının danışıqlarda nəticə əldə olunması üçün Azərbaycanın şərtlərini qəbul etməyə məcbur olduğunu bildirir. Buna digər səbəb Ermənistana kənardan, o cümlədən Rusiyadan verilən dəstəyin azalmasıdır.

Rusiya və digər dəstəkçilər Ermənistana artıq siyasi müstəvidə də dəstək vermir. Əksinə, Ermənistanın onlarla problemi gedərək dərinləşir. Elə rusiyalı siyasi analitik Fyodor Lukyanov da məsələyə məhz bu prizmadan yanaşır. O vurğulayır ki, Ermənistanın yaranmış vəziyyətdən ciddi narahatlıq keçirməsi üçün əsaslar kifayət qədərdir. Ekspert bildirir ki, Rusiyadan və KTMT-dən əli üzülməkdə olan İrəvan məntiqə zidd hərəkət edərək Bakının Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə dair konstruktiv danışıqlar barədə çağırışlarına məhəl qoymamağa davam edərsə, daha böyük problemlərə düçar olacaq. Bu isə Qarabağ məsələsinin həllində irəliləyiş istəyən Rusiyanı da ciddi narahat edir:"Moskva məsələnin həllində irəliləyiş olmasında maraqlıdır, lakin bunu Ermənistan əngəlləyir. Xüsusən də Paşinyanın tez-tez təkrarlanan ziddiyyətli mövqeyi vəziyyəti daha da mürəkkəbləşdirir. Fikrimcə, Nikol Paşinyanın populizmi, ziddiyyətli mövqeyi artıq erməni xalqının özünü də çox yorub. Çünki Ermənistanda vəziyyət pisləşir. Erməni gənclər ölkələrindəki iqtisadi vəziyyətin pisləşməsini çox gözəl şəkildə görürlər. Onlar üçün pul qazanmaq getdikcə çətinləşir. Və belə bir vaxtda İrəvan, daxili sosial problemləri həll etmək əvəzinə, qonşu ölkələrə qarşı təcavüzkar siyasətini davam etdirir. Bu isə Kremlin də xoşuna gəlmir. Rusiya Bakı ilə müttəfiqlik və tərəfdaşlıq münasibətləri qurmağa köklənib. Moskva bu münasibətləri artıq Erəmnistana görə qurban vermək niyyətində deyil". Bütün bunlar yaranmış vəziyyətdə Azərbaycanın mövqelərinin daha güclü hala gəldiyini, ona verilən dəstəyin artdığını göstərir. Ermənistanın bu halda yalqız duruma düşməsi onun mövqelərinin daha da zəifləməsi ilə müşayiət edilir. Təbii ki, bu vəziyyətdə güclü Azərbaycan, danışıqlar istənilən nəticəni verməsə, savaş yolu ilə problemi çözməli olacaq. Onda Azərbaycan qarşısında da işğalçı Ermənistanı heç kim müdafiə etməyəcək. Hadisələrin məhz bu səpkidə inkişaf edəcəyini bu gün Ermənistanda da müşahidə edənlərin, Paşinyan iqtidarına bu xüsusda müvafiq xəbərdarlıqlar ünvanlayanların sayı az deyil. Təbii ki, belə vəziyyət artıq danışıqlarda Ermənistanın mövqeyinə təsrini göstərir.

Ermənistanın danışıqlar prosesində zəif durumunu şərtləndirən daha bir faktor güc amili ilə bağlıdır. Azərbaycan ordusu, ölkəmizin hərbi qüdrəti ilə Ermənistan indi daha çox hesablaşmağa məcburdur. Regionun ən güclü ordusuna malik ölkə kimi də xarakterizə olunan Azərbaycan Silahlı Qüvvələrini gündən-günə daha da modernləşdirməkdə, onu istər şəxsi heyət, istərsə də hərbi texnika və digər maddi resurslar baxımından yüksək səviyyədə təchiz etməkdədir. Mənəvi-psixoloji hazırlıq cəhətdən də yüksək səviyyədə olan Azərbaycan ordusu işğal edilmiş əraziləri qısa zaman ərzində tam azad etmək gücündədir və bu, beynəlxalq dairələrdə, o cümlədən işğalçı Ermənistanın özündə də açıq etiraf olunmaqdadır. Təsadüfi deyil ki, indi işğalçı dövlətdə Azərbaycan və Ermənistan orduları arasında fərqin böyük sürətlə ölkəmizin lehinə dəyişməsinə dair etiraflar çoxalmaqda və Dağlıq Qarabağ münaqişəsinin həlli hərbi müstəviyə keçəcəyi təqdirdə bunun Ermənistan üçün əsl fəlakət olacağını qəbul edənlərin sayı sürətlə artmaqdadır. Lakin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə ümidlər hələ tükənmədiyindən, Azərbaycan məsələnin hərbi müstəvidə çözümünə hələlik lüzum görmür.

Bununla belə, Ermənistana və dünya ictimaiyyətinə yaxşı məlumdur ki, zəbt olunmuş ərazilərinin azad edilməsi üçün Azərbaycan beynəlxalq hüquq çərçivəsində hər an hərbi əməliyyatlara başlamaq və ərazilərini az vaxtda düşməndən tam təmizləmək iqtidarındadır. Mövcud reallığa uyğun olaraq, Azərbaycan həm işğala məruz qaldığından, həm də müharibə şəraitində yaşadığından bu gün də ordusunu gücləndirməkdə, onu müasir hərbi texnika ilə təchiz etməkdədir. Ölkəmizin iqtisadi qüdrəti və malik olduğu potensial isə ordunun bundan sonra insan resursundan tutmuş bütün maddi təminatına qədər yüksək olacağını deməyə əsas verir. Ermənistanda isə tamam əks prosesdir və bu da, istər-istəməz, danışıqlarda Ermənistanın daha zəif duruma düşməsini şərtləndirir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Amulsar qızıl yatağında Qərb şirkətləri ilə pul qazanan Paşinyan Qafqaz xalqlarını zəhərləmək yolu tutur...

**Ermənistan rəhbərliyinə beynəlxalq təzyiq nəticəsində Amulsar qızıl yatağının istismarı Qafqaz regionunda suxurun keyfiyyətinə, ümumilikdə Xəzəryanı dövlətlərin ekologiyasına təhlükə törədə bilər. Ortada yoxsul Ermənistanın xəzinəsinə milyonlarla vəsaitin daxil olması və Qərb ölkələrinin iri maraqları dayanır.**



## *Yeganə Hacıyeva: "Bunu əsaslandırılmış şəkildə edə bilsək, yatağın fəaliyyətini dayandırmaq da mümkün olar"*

Bu vəziyyətdə, aydındır ki, Amulsar layihəsinin işlənməsi qaçılmazdır. Daha az taleyüklü məsələlərə dərhal reaksiya göstərən beynəlxalq ictimaiyyət bu fakta ləng reaksiya verir. Amma bütün Xəzər hövzəsinin həssas ekosistemi, beş Xəzəryanı dəvlətin əhalisinin həyatı və sağlamlığına təhdid qalmaqdadır.

Ermənistanın bütün bölgəni ekoloji fəlakət halına salan bu davranışına hansı reaksiya verilməlidir?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanda inqilabdan sonra Paşinyan loyal çoxluğun, xüsusilə müxtəlif iqtisadi qrupların təmsilçiliyi ilə hakimiyyətə gəldi:"Hələ İrəvan küçələrində etirazlara rəhbərlik edən Nikol Paşinyanın həyat yoldaşının ölkədə maraqları və gözləntiləri olan transmilli korporasiyaların nümayəndələri ilə görüşləri və götürdükləri öhdəlikləri mövcud idi. Həmçinin Paşinyanın seçki kampaniyası ərəfəsi komandasının sıx kontaktda olduğu biznes dairələri ilə də razılaşmalar mövcud olub. Bunlardan biri də "Lydian Armenia" şirkətidir və bu şirkət Amulsar qızıl yataqlarına 2016-cı və 2019-cu illərdə 400 milyona yaxın maliyyə yatırıb.

Bu şirkətlə yeni hökumət Amulsar dağındakı qızıl yatağının işlənməsi ilə bağlı çərçivə razılaşma sənədi imzalayıb. Müqavilənin şərtlərinə görə, Ermənistan hökuməti, şirkətlə danışıqları ləğv edəcəyi halda, şirkətin investisiya formasında yatırdığı 400 milyon dollarlıq maliyyədən kənarda həm də 700 milyon dollar cərimə ödəməlidir. Beynəlxalq Arbitraj Məhkəməsinə müraciət olunacağı halda bu məbləğ daha çox olacaq. Bu isə o deməkdir ki, Ermənistanı da Qərbi Afrika ölkəsi Nigeriyanın aqibəti gözləyə bilər. Xatırladım ki, Nigeriya da qaz yataqlarının işlənməsi ilə bağlı İngiltərə şirkəti ilə ləğv etdiyi sazişə görə arbitraj məhkəməsi tərəfindən 9 milyard dollar cərimə edildi.

Cərimənin tətbiqi kiçik büdcəli Ermənistan üçün defolt təhlükəsi yaradar ki, onun bu yükün altından çıxması mümkün olmaz".

Yeganə Hacıyevanın sözlərinə görə, Ermənistanın Amulsar qızıl yatağının istismarının Qafqaz regionunda suxurun keyfiyyətinə, ümumilikdə Xəzəryanı dövlətlərin ekologiyasına təhlükə törədə bilməsi haqqında ekspert rəyləri mövcuddur:"Bu onunla izah edilir ki, həmin yatağın birbaşa təmasda olduğu Naxçıvan Muxtar Respublikası ərazisindən axan Arpaçay, eləcə də Azərbaycanın işğal olunmuş ərazilərindən axan Bazarçay Araz çayına və oradan da Xəzər dənizinə tökülür. Beləliklə, bu təkcə Azərbaycanın deyil, həm də İranın, eləcə də digər Xəzəryanı ölkələrin ekologiyasına ciddi ziyan vurur. Bu halda isə Xəzəryanı ölkələrin mövzuya qarışması üçün hüquqi əsası mövcuddur.

Məsələ ondadır ki, 2018-ci il avqustun 12-də Aktauda keçirilmiş V zirvə toplantısında Xəzər dənizinin hüquqi statusu üzrə Konvensiyanın imzalanması beş Xəzəryanı dövləti həm də Xəzərin ekoloji vəziyyətinə cavabdeh bir ünvan kimi tanıyır.

Çünki Konvensiya Xəzər dənizində həm də ekoloji münasibətlərin və davranışın hüquqi çərçivəsini müəyyən edir. Digər məsələlərlə bərabər Konvensiyanın müəyyənləşdirdiyi hüquqi öhdəliklər bəlli çərçivə və anlayışları müəyyənləşdirib. Yəni Xəzərin taleyi ilə bağlı Konvensiyaya imza atan ölkələr öz sözlərini deyə bilərlər. Düşünürəm ki, bunu əsasandırılmış şəkildə edə bilsək, yatağın fəaliyyətini dayandırmaq da mümkün olar".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistan koronavirusla ən pis mübarizə aparan ölkə kimi - 5,9 faiz dünya rekordu sayıla bilər

**"Ermənistan koronavirusa yoluxma hallarının artım tempinə görə dünya rekordu vurub. 16 mayda Ermənistanda koronavirus xəstələrinin sayı 4283 elan olundu. Bu o deməkdir ki, bir gündə 239 nəfər yoluxub". Bunu Ermənistanın keçmiş baş naziri Hrant Baqratyan öz "Facebook" səhifəsində yazıb.**




## *Əli Orucov: "Bu onu göstərir ki, Ermənistan hakimiyyəti pandemiya ilə effektiv mübarizə apara bilmir"*

O qeyd edib ki, 5,9% artım tempi deyəsən ya dünya rekordudur, ya da ən pis nəticələrdən biridir: "Müqayisə üçün həmin bu bir gündə yeni xəstələrin kəmiyyət artımının dünyadakı sayı ABŞ-da 2.2 faiz, Rusiyada 1.8 faiz, Türkiyədə 3.8 faiz, İranda 1 faizdən aşağı, Gürcüstanda 0.3 faiz, Azərbaycanda 1.5 faiz olub".

Erməni mediası yazır ki, Ermənistanda epidemiya sürətlə davam edərkən, hökumət iqtisadiyyat sahələrini açmaqdadır. Koronavirus infeksiyası halları daha aşağı olduğu vaxt fövqəladə vəziyyət elan edildi. İndi yoluxmuş insanların sayı bir neçə dəfə çox olduğu bir vaxtda Paşinyan hökuməti, demək olar ki, bütün məhdudiyyətləri ləğv edərək, xalqın aqibətini taleyin ümidinə buraxır. Təsadüfi deyil ki, Ermənistanda infeksiyanın yayılması Gürcüstanla müqayisədə bir neçə dəfə çoxdur. Gürcüstanda virusa yoluxmuş insanların sayı 600-dən bir qədər artıq, Ermənistanda isə bu rəqəm mayın 19-na olan məlumata görə, 5041 nəfərə, xəstəlikdən ölənlərin sayı isə 64 nəfərə çatıb. Gürcüstanda koronavirusdan ölənlərin sayı 10 nəfərə çatmır, Ermənistanda isə ölənlərin sayı 64 nəfərdir. Göründüyü kimi, Ermənistanda koronavirusa yoluxanların kəmiyyət artımı bir sıra ölkələrlə müqayisədə daha çoxdur.

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, Ermənistan əhalisinin sayı az olsa da, orada virusa yoluxanların dinamikası daha yüksəkdir: "Hansı ki, Ermənistan Cənubi Qafqazda əhalisinin sayına görə ən kiçik ölkədir. Ancaq virusa yoluxanların sayı daha çoxdur. Bu onu göstərir ki, Ermənistan hakimiyyəti pandemiya ilə effektiv mübarizə apara bilmir. Bunun bir neçə səbəbi var. Birincisi, bu, hakimiyyətin səriştəsizliyi ilə bağlıdır. Faktiki olaraq, Paşinyan hakimiyyəti pandemiyaya qarşı effektiv mübarizəni təşkil edə bilmir. İkincisi, Ermənistan yoxsul ölkə olduğu üçün koronavirusla mübarizədə yetərli maliyyə vəsaitinə malik deyil. Digər tərəfdən, ictimai nəqliyyatın hərəkəti iki ay əvvəl, ölkədə fövqəladə vəziyyət elan ediləndən sonra dayandırıldı. Fövqəladə vəziyyət rejimi iyunun 13-nə qədər uzadılıb, amma nəqliyyat yenidən işə düşüb ki, insanlar işə gedib-gələ bilsinlər. Erməni mediasının məlumatına görə, bağlanan bütün müəssisələrin işi bərpa olunub. İnsanlar işə piyada, taksi ilə, öz avtomobillərində və ya yolüstü maşınlarla getməli olurdular.

## *"Yoxsul ölkə olduğu üçün koronavirusla mübarizədə yetərli maliyyə vəsaitinə malik deyil"*

Çünki ictimai nəqliyyat virusun yayılması üçün ən təhlükəli ocaq hesab edilir. Yoluxma risqinin minimuma endirilməsi üçün Ermənistan indi sərt qaydalar tətbiq edir. Bütün nəqliyyat vasitələri ciddi şəkildə dezinfeksiya edilməlidir, bütün sərnişinlər isə maska taxmalıdır. İndi Ermənistan hökuməti məhdudiyyətlərin minumuma endirilməsi və yeni davranış qaydalarının tətbiqi yolu ilə gedir. Məsələn, mayın 20-dən bütün qapalı məkanlarda, mayın 25-dən isə hər yanda maska taxmaq məcburi olacaq. Ancaq düşünmürəm ki, bu kimi tədbirlər ölkədəki virusayoluxma prosesini azalda bilsin".

***Vidadi ORDAHALLI***

# Bakıda gün ərzində 500, ildə 150 min vətəndaşa əsl xidmət edəcək mərkəz fəaliyyətə başladı - Prezidentin və birinci xanımın iştirakı ilə

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 19-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin açılışında iştirak edib. Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlət başçısına və birinci xanıma mərkəzdə yaradılan şərait barədə məlumat verib.**

Bildirib ki, Heydər Əliyev prospektində yerləşən 3 saylı DOST Mərkəzi paytaxtın Nizami, Suraxanı və Sabunçu rayonlarının sakinlərinə xidmət göstərəcək. Mərkəzdə əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, övladlığa götürmə, əlillik, əmək və məşğulluq, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza Komissiyasının xidmətləri göstəriləcək. Burada 130 nəfərdən çox işçi və "Könüllü DOST" proqramı üzrə 50 könüllü çalışacaq. Mərkəz gün ərzində 500, il ərzində isə ümumilikdə 150 mindən artıq vətəndaş qəbul edə biləcək.

DOST mərkəzi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində deyib:

- DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürüdür. Artıq üçüncü mərkəz açılır və ilk açılan iki mərkəzin fəaliyyəti də çox uğurludur. Vətəndaşların bəyənmə əmsalı 96 faizə çatıbdır. Burada göstərilən xidmətlər, əlbəttə, sosial təminat sahəsində böyük bir yenilikdir və təsadüfi deyil ki, artıq bir neçə ölkə bu təcrübə ilə bağlı bizə müraciət edib və Azərbaycan öz təcrübəsini bölüşməyə hazırdır.

Bütövlükdə 30-dan çox mərkəzin fəaliyyətə başlaması nəzərdə tutulur. Ümid edirəm ki, yaxın bir neçə il ərzində Bakıda və bütün ölkə üzrə DOST mərkəzləri fəaliyyətə başlayacaq. Eyni zamanda, burada iş yerləri yaradılır. Mənə verilən məlumata görə, bu DOST Mərkəzində 130-dan çox iş yeri yaradılır və o cümlədən könüllülər də işlərə cəlb olunur. Bütövlükdə 130-dan çox xidmətin göstərilməsi demək olar ki, sosial sahənin bütün xidmətlərini ehtiva edir. Beləliklə, bu mərkəzlərin fəaliyyəti həm insanlara rahatlıq verəcək, eyni zamanda, şəffaflıq istiqamətində önəmli addım artıq özünü doğruldub. Eyni zamanda, burada tətbiq olunan innovasiyalar bizim gələcəyə baxışımızla tam uzlaşır. Çünki innovativ inkişaf bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Əlbəttə, DOST mərkəzləri məhz bu innovasiyalar əsasında fəaliyyət göstərir və gələcəkdə bu istiqamətdə əlavə addımların atılması da nəzərdə tutulur.

**Mən həmişə gənclərə yüksək qiymət verirəm...**

Azərbaycanın bugünkü inkişafında gənclərin roluna dair sualın cavabında Prezident deyib ki, mən gənclərin rolunu həmişə çox yüksək qiymətləndirmişəm:"Bu gün də Azərbaycan gəncləri ölkəmizin uğurlu inkişafında öz fəal rolunu oynayırlar. Deyə bilərəm ki, gənclər cəmiyyətimizin ən fəal təbəqəsidir və bu gün gənclərə geniş imkanlar yaradılır. Gənclər önəmli vəzifələrə təyin olunur: nazir, icra başçısı vəzifələrinə. Eyni zamanda, Milli Məclisdə kifayət qədər gənclərimiz var və DOST Mərkəzində çalışan insanların demək olar ki, hamısı gənclərdir...Bütövlükdə gələcəkdə Azərbaycanı idarə edəcək insanlar bugünkü gənclərdir. Ona görə onların bilikləri və eyni zamanda, vətənpərvərliyi bizim müstəqilliyimizi daim gücləndirəcək və ölkəmizin uzun illər, onilliklər bundan sonra dayanıqlı inkişafını təmin edəcək.

**Belə əhatəli sosial paket həyata keçirən başqa ölkə varmı?**

Son illər Azərbaycanda əhalinin sosial təminatı ilə bağlı görülən kompleks tədbirlər barədə danışan dövlət başçısı deyib ki, sosial sahə daim prioritet sahə olub və mənim əvvəlki illərdə də çıxışlarımda daim bu məsələyə böyük diqqət yetirilib:"Xüsusilə son müddət ərzində - keçən il və bu il sosial sahə daha da böyük prioritet kimi gündəlikdə mövcuddur. Təsadüfi deyil ki, ötən il müstəqillik dövründə ən geniş sosial paket təqdim olundu və uğurla icra edildi. Bu sosial paketin əhatə dairəsi çox geniş idi - 4 milyon 200 min insan dövlət tərəfindən sosial paketlə təmin edildi. Bunun içərisində minimum əməkhaqqının təxminən 2 dəfə, minimum pensiyanın 70 faizdən çox qaldırılması məsələləri var idi. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB məkanında lider dövlətdir. Müavinətlər qaldırıldı - bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə. Problemli kreditlərlə bağlı məsələ öz həllini tapdı. Yəni, biz bu məqsədlər üçün milyardlarla manat ayırdıq və dediyim kimi, 4,2 milyon insanın güzəranı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı.

Biz indi pandemiya dövründə yaşayırıq və pandemiyaya bizim cavabımız çoxşaxəli olmuşdur. O cümlədən sosial təminatla bağlı çox ciddi, operativ və məqsədə hesablanmış addımlar atılmışdır. Artıq sirr deyil ki, dövlət sektorunda fəaliyyət göstərən 900 min insanın əməkhaqqı tam ödənildi, özəl sektorda təxminən 700 min insanın əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənildi. İşsiz vətəndaşların, aztəminatlı təbəqənin, o cümlədən qeyri-formal məşğulluqda fəaliyyət göstərən insanların sosial təminatı təşkil edildi, hər birinə 190 manat vəsait ayrıldı. Bu kateqoriyadan olan insanların sayı az deyil, 600 mindir.




**Bəziləri Azərbaycanın kosmik ölkə ola biləcəyinə təəccüb edirdi**

Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı və innovasiyanın tətbiqi ilə bağlı sualın cavabında Prezident deyib: "Biz kosmik sənayenin yaradılması ilə məşğul olmağa başlayanda bəziləri təəccüb edirdi, bəziləri düşünürdü ki, Azərbaycan o qədər də böyük ölkə deyil, - kosmik klub dünya miqyasında çox məhdud bir klubdur, - və Azərbaycan üçün orada özünə yer tapmaq çətin olacaq. Ancaq həyat göstərdi ki, biz düzgün yoldaydıq. Çünki kosmik sənayenin yaradılması, üç peykin orbitə çıxarılması təkcə iqtisadi və digər maraqlarımızı təmin etmir, eyni zamanda, bu, kadrların hazırlanması, gənc kadrların yeni texnologiyalara sahib çıxması baxımından da çox önəmli idi. Kadr hazırlığı olmadan müasir texnologiyalar heç bir ölkədə inkişaf edə bilməz. Ona görə biz həm dövlət resurslarımızı bu istiqamətə cəlb etdik və çox düzgün proqram tərtib etdik, həm də kadr hazırlığı ilə əlaqədar əməli-praktiki addımlara start verdik...

*(Ardı 9-cu səh.)*

*(Əvvəli 8-ci səh.)*

Biz hazırda ağıllı şəhər - "Smart City" layihəsi üzərində işləyirik. Bu layihənin ilkin təzahürləri artıq görünməkdədir. Biz daha uzağa gedərək artıq "Smart Nation", yəni "Ağıllı ölkə" proqramı üzərində işləməyə başlamışıq. Ölkəmizin rəqəmsallaşdırılması, informasiya texnologiyalarının bütün sahələrdə tətbiq edilməsi bizim prioritet sahəmizdir.

**Ermənistan müharibədə ölənlərin ailələrinə ev, maşın verirmi…**

Prezident müsahibəsində şəhid ailələrinin sosial məsələlərinin həlli, onların mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində görülən tədbirlərdən də danışaraq deyib ki, bu daim diqqət mərkəzində olan məsələdir: "Bu günə qədər 7600 şəhid ailəsi dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilibdir. Bu il şəhid ailələrinə verilən mənzillərin, evlərin sayı rekord həddə çatıb - 1500 şəhid ailəsinə evlər, mənzillər veriləcək və beləliklə, növbədə duran şəhid ailələrinin sayı 2 mindən az olacaqdır. Ümid edirəm ki, maksimum iki il ərzində bütün şəhid ailələri dövlət tərəfindən evlərlə təmin ediləcəkdir.

Bununla paralel olaraq, biz minik maşınları da veririk - həm şəhid ailələrinə, həm də Qarabağ qazilərinə. Bu günə qədər 6 mindən çox minik maşını verilib, bu il də 400 maşının verilməsi nəzərdə tutulur. Deyə bilərəm ki, bu sahədə də Azərbaycan liderlik göstərir. Çünki dünyanın bir çox yerlərində müharibələr olub, münaqişələr, insan itkisi olub. Mən, əlbəttə, Azərbaycanı heç bir ölkə ilə müqayisə etmək istəməzdim, ancaq həqiqət ondan ibarətdir ki, Azərbaycanda müharibədən əziyyət çəkmiş, öz yaxınlarını itirmiş ailələrin dövlət tərəfindən dəstəklənməsi, hesab edirəm, ən yüksək səviyyədədir.

İndi bir daha demək istəyirəm ki, heç kimlə müqayisə aparmaq istəmirəm, amma baxın, Ermənistanda müharibədə ölənlər olubdur. Onların ailələrinə mənzil, avtomobil verilir? Yox. Orada pullar faşistlərin abidələrinin ucaldılmasına xərclənir. Amma biz bütün bu işləri görürük və görməliyik. Bu bizim mənəvi borcumuzdur.

**Koronavirusa qarşı qabaqlayıcı tədbirlər görməsəydik…**

Azərbaycanda koronavirusun qarşısının alınması ilə bağlı görülən və görüləcək işlərə gəlincə, Prezident deyib ki, bu təhlükə ilə bağlı işlər əvvəldən Azərbaycanda çox düzgün istiqamətdə aparıldı və bunu həm Azərbaycan xalqı görür və təqdir edir, həm də beynəlxalq təşkilatlar:"Bu günə qədər mən vətəndaşlardan gündə yüzlərlə məktub alıram. Yəni pandemiyanın ilk günlərindən minlərlə məktub almışam və bütün bu məktublar təşəkkür xarakterli məktublardır. Çünki doğrudan da qabaqlayıcı tədbirlərin görülməsi bizi böyük bəladan xilas etdi. Yenə də hər şey müqayisədə ölçülür. Əhalisinin sayı Azərbaycanla eyni olan inkişaf etmiş ölkələrdə vəziyyət necədir, Azərbaycanda vəziyyət necədir? O ölkələrin bəzilərində bu günə qədər 10 minə yaxın insan vəfat etdi. Azərbaycanda vəfat edənlərin sayı kifayət qədər azdır. Eyni zamanda, qabaqlayıcı, məhdudlaşdırıcı tədbirlər imkan verdi ki, biz pandemiyanın geniş vüsət almasının qarşısını alaq və buna nail olduq. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı bizim bu sahədə gördüyümüz işləri yüksək qiymətləndirir və Azərbaycanı nümunəvi ölkə adlandırır. Bu bizim gördüyümüz işlərə verilən böyük qiymətdir.

...Bizdə hazırda 20-dən çox xəstəxana sırf koronavirusla bağlı fəaliyyət göstərir, orada ancaq koronavirus xəstələri müalicə olunur - hazırda 19 xəstəxanada. Çünki indi bəzi xəstəxanalarda artıq xəstə qalmır. Ancaq 20-dən çox xəstəxana hazırdır, modul tipli 10 xəstəxananın inşası başlamışdır, birinin açılışında mən iştirak etmişəm. Bu da bizə əlavə 2000 yataq verəcəkdir. Bütün tibbi avadanlıq təmin edilib, süni tənəffüs aparatları gətizdirilib, reanimasiyada kifayət qədər boş yerlərimiz var, yataqlar kifayət qədərdir, karantində saxlanılanların sayı xaricdən gələnlərin sayı ilə birbaşa əlaqəlidir.

Karantin şəraiti çox gözəldir və mən karantində qalanlardan da çoxsaylı məktublar alıram, onları dörd-beş ulduzlu otellərdə saxlayırıq. Biz özümüz indi tibbi maska, kombinezon, dezinfeksiya vasitələri istehsalına başlamışıq. Ona görə bu kompleks tədbirlər, əlbəttə ki, bizi böyük bəladan qoruya bildi".

**13 ölkəyə, üç beynəlxalq təşkilata koronavirusla mübarizədə yardım etmək asandırmı?**

Dövlət başçısı müsahibəsində pandemiyanın törətdiyi iqtisadi fəsadların aradan qaldırılması məsələsinə də diqqət çəkib. Bildirib ki, bununla yanaşı, Azərbaycan bir sıra xarici ölkələrə yardım da edir:"Çünki xarici siyasətdə biz həmişə əməkdaşlığa üstünlük vermişik və bunun faydasını görmüşük. Harada imkanımız olub, əgər imkanımız olubsa, kömək etməyə çalışmışıq və etmişik". "...Biz indi iki təşkilata sədrlik edirik və bu iki təşkilatın Zirvə görüşünü keçirmişik - Türk Şurası və Qoşulmama Hərəkatı və ən yüksək səviyyədə. Qoşulmama Hərəkatının və Türk Şurasının yekun bəyannaməsində Azərbaycanın xüsusi rolu qeyd olundu. Biz hər bir işə çox məsuliyyətlə yanaşırıq və bizim sədrliyimiz formal xarakter daşımamalıdır və daşımır. Ona görə çətin gündə kimin imkanı varsa, kömək etməlidir, həyatda da, siyasətdə də. Bu bizim, necə deyərlər, adət-ənənələrimizə də uyğundur. Ona görə bu gün bu yardımın göstərilməsi hesab edirəm ki, düzgün addımdır. Bu günə qədər biz 13 ölkəyə yardım göstərmişik və bu haqda ancaq son vaxtlar danışmağa başlamışıq...

Azərbaycan o ölkələrdəndir ki, həmişə üzüağ, alnıaçıq olub və pandemiya bunu bir daha təsdiqləyib".

# Postpandemiya dövrü üçün Azərbaycan-Rusiya əməkdaşlığının yeni perspektivi açılıb - Əliyev-Putin danışığından çıxan real nəticə...

**Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı dövlət başçıları koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən işlərdən danışıb, bu istiqamətdə ölkələrimizin sərhəd-keçid məntəqələrində qarşılıqlı əlaqələndirmə şəraitində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparıblar.**




## Elşən Əliyev: *”Xüsusilə də qeyri-neft sektorunun inkişafı sahəsində ciddi təcrübə mübadiləsi aparılacaq”*

Dövlət başçıları Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əməkdaşlığımızın postpandemiya dövründə inkişaf perspektivlərini də müzakirə ediblər. Belə çıxır ki, postpandemiya dövrü üçün bir az fərqli əməkdaşlıq formaları olacaq. Bunlar hansı formalar ola bilər?

İqtisadçı Elşən Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu özünü daha çox iqtidasi sferada göstərəcək:"Siyasi münasibətlər sistemində elə bir dəyişiklik olmayacaq. Çünki bunun üçün ciddi bir hal baş verməyib. Ancaq iqtisadi münasibətlərə bunun aidiyyəti var. Rusiya ilə Azərbaycan arasında dərin iqtisadi münasibətlər var. İki ölkə arasında iqtisadiyyatın bütün sahələri üzrə yaxın əməkdaşlıq mövcuddur. Danılmaz faktdır ki, pandemiya hər iki ölkənin iqtisadiyyatına mənfi təsirlər edib. Eyni zamanda, bu dönəmdə neftin qiyməti kəskin düşüb. Həm Rusiya, həm də Azərbaycan neft ixrac edən ölkə sayılır. Bütün bu reallıqlar iqtisadi sahədə əməkdaşlıq imkanlarını yenidən nəzərdən keçirməyin vacibliyini şərtləndirir. Dünya iqtisadiyyatını qarşıda gözləyən dövr üçün kifayət qədər bədbin proqnozlar səslənməkdədir. Verilən proqnozlar iqtisadiyyatda əhəmiyyətli dərəcədə geriləmələr olacağını deməyə əsas verir. BMT-nin İqtisadi və sosial işlər departamentinin "Dünyada iqtisadi vəziyyət və perspektivlər" adlı son hesabatında bildirilir ki, cari ildə dünya iqtisadiyyatı COVID-19 pandemiyası nəticəsində 3,2 faiz kiçilib, yəni 8,5 trilyon ABŞ dolları məbləğində zərərə uğrayıb. Bildirilir ki, yeni koronavirus pandemiyası ilə bağlı tətbiq edilən məhdudiyyətlər dünya iqtisadiyyatının 90 faizinə təsir edərkən istehsalat zəncirlərinin pozulmasına, tələbatın azalmasına, işsizliyin artmasına gətirib çıxarıb. Pandemiya başa çatandan sonra bütün dünya ölkələri iqtisadiyyatlarının maksimum tez dirçəlməsinə çalışacaqlar. Tramp və dünyanın başqa liderləri epidemiyadan sonra dünyada yeni düzənin olacağını bəyan edirlər. Dünya dəyişirsə, deməli bunun bizə də aidiyyəti olacaq.

Bu baxımdan da, Rusiya ilə Azərbaycan arasında görüləsi çox işlər var. İqtisadi əlaqələrə yenidən baxıb, daha optimal təklifləri nəzərdə keçirmək olar. Yəni hər iki ölkənin rəsmiləri çalışacaqlar ki, yeni münasibətlər sisteminin hər iki dövlətə xeyri dəysin. Rusiya ilə ölkəmizin bunun üçün kifayət qədər potensialı var. Biz həm də qonşu ölkələrik. Bu amil də daha sıx əməkdaşlığın olmasını labüd edir. Hesab edirəm ki, xüsusilə də qeyri-neft sektorunun inkişafı sahəsində ciddi təcrübə mübadiləsi aparılacaq".

*Məhəmmədəli QƏRİBLİ*

# Faşizm sevgisi ermənilərin İsrail arzularını da puç edir... "İsrael HaYom" qəzeti Prezident Əliyevin sözlərindən sitat gətirdi

**Xarici siyasətdə ciddi fiaskoya uğrayan Ermənistan üçün diqqət mərkəzində yer alan əsas məqamlardan biri də İsraillə əməkdaşlığı gücləndirməkdir. Irəvanda hesab edilir ki, bununla Ermənistan həm də yəhudi lobbisinin və iş adamlarının dəstəyini əldə edə bilər.**

Bu, ABŞ-ın Ermənistana baxışının dəyişməsi üçün də olduqca vacib sayılır. Ermənistan bu məqsədlərə nail olmaq üçün hətta İsraildə səfirlik açmaq məsələsini də gündəmdə saxlamaqda davam edir. Amma o da bəllidir ki, bu vəziyyət Ermənistanın İranla münasibətlərinə mənfi təsir göstərir. Xüsusən də səfirlik məsələsi gündəmə gəldikdən sonra İran rəsmi səviyyədə buna etiraz edib. Bu ölkənin Xarici İşlər Nazirliyi Ermənistanın İsraildə səfirlik açmaq niyyətinə münasibətinin mənfi olduğunu bildirib. Tehran İsraildə səfirlik açmaq istəyini elan edən Ermənistana rəsmən məsələdən narahat olduğunu bildirib. İranlı ayətullah Seyid Həsən Amili isə məsələyə daha sərt reaksiya verib:"Ermənistanda Qərbyönümlü qrup hakimiyyətə gələndən sonra Ağ Evin tələb və tapşırığı ilə bu ölkənin İsraillə münasibətlərinin genişləndirilməsi gündəliyə salınıb. Bu səbəbdən də Ermənistanın Təl-Əvivdə səfirlik açmaq barədə verdiyi qərar, xüsusilə də şəxsən Nikol Paşinyanın razılığı çox təhlükəlidir. İrəvanın bu addımı İslam dünyasının, əsasən də İranın maraqlarına ziddir və ölkəmizdə geniş reaksiyalara səbəb olub, ciddi etirazlar bildirilib. Belə ki, bir çox siyasi simalar, ekspertlər, təhlilçilər, İslam Şura Məclisi təmsilçiləri Ermənistanın bu hərəkətinin nəticələri barədə xəbərdarlıqlar ediblər. Ermənistanın Təl Əvivlə səfirlik açmaq səviyyəsində münasibətlərinin genişlənməsi İran üçün böyük təhlükədir". Beləliklə, bu hal Ermənistanın İranla münasibətlərinə xələl gətirən mühüm faktorlardandır. Lakin yaranmış şəraitdə Ermənistanln İsraillə də münasibətlərinin yüksək səviyyədə olduğunu demək olmaz. Xüsusən də Ermənistanda meydana çıxan faşizm sevgisi tamam fərqli bir durum yaradır. Yeri gəlmişkən xatırladaq ki, faşizm məsələsi İsrail üçün olduqca həssas bir mövzu sayılır. Indi Ermənistanda tüğyan edən faşizmə rəğbət məsələsinə bu mənada İsraildə də xüsusi diqqət yetrilməsi təsadüfi sayıla bilməz. İsraildə çıxan nüfuzlu "Israel HaYom" qəzetində dərc olunmuş məqalədə də bu xüsusda maraqlı məqamlara toxunulur. Burada xatırlanır ki, İkinci Dünya müharibəsi zamanı yəhudi xalqı dəhşətli, dözülməz faciə olan Holokost soyqırımını görüb: "Vəhşiləşmiş, qəddar faşist rejimi tərəfindən yəhudi xalqının kütləvi şəkildə məhv edilməsi ürəkağrısı, iztirab, alçaldılma, təhqir olunma deməkdir". Qeyd edilir ki, bu fonda ən qəribə əhvalat bir neçə gün bundan əvvəl baş verib. Ermənistanın indiki baş naziri "facebook" şəbəkəsində öz babasının fotoşəklini paylaşıb: "Xatırladaq ki, 9 May ərəfəsində Ermənistanın baş naziri Nikol Paşinyan adını daşıdığı babası Nikol Paşinyanın fotoşəklini paylaşıb və belə bir post yazıb: "Nikol Paşinyan, 1913-1943. 138-ci atıcı diviziyanın 554-cü atıcı alayında xidmət edib. Vətən uğrunda həlak olanlara əbədi eşq olsun". Məlum olub ki, əslində, Ermənistanın indiki baş naziri Nikol Paşinyanın babası Nikol Paşinyan İkinci Dünya müharibəsi illərində faşistlər və nasistlərlə əməkdaşlıq etmiş kollaborasionist olub". Qəzet bu xüsusda MDB-nin Aşqabad Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyevin sözlərini sitat gətirir. Həmin Zirvə görüşündə Nikol Paşinyan faşist Njdeni sovet dissidenti Soljenitsınla müqayisə etməyə çalışarkən fiaskoya uğrayıb. Qəzet daha sonra yazır: "İlham Əliyev öz ölkəsinin əsl lideri kimi hərəkət edib. O bütün MDB ölkələrinin prezidentləri arasında birinci olaraq Ermənistanın baş nazirinin üzünə deyib ki, onun ölkəsi artıq neçə ildir faşist və antisemit Qaregin Njdenin qəhrəmanlaşdırılması ilə məşğul olur. Xalqların öz tarixini, tarixi keçmişini şərh etmək və öz milli qəhrəmanlarının xatirəsini əbədiləşdirmək kimi suveren hüquqlarına heç kəs müdaxilə etmir. Lakin Prezident İlham Əliyev MDB-nin Zirvə görüşündə əsl həqiqəti deməyə bilmədiyi kimi, biz də susmamalıyıq. Dəhşətli Holokost cinayətlərində əli olmuş insanlar milli qəhrəmanlara çevrildə biz susmamalıyıq. Üç il bundan əvvəl İrəvanda nasistlərin əlaltısı, faşist və antisemit Qaregin Njdeyə heykəl qoyulmasına biz israillilər necə münasibət bildirməliyik? Ölkə bəşəriyyət əleyhinə cinayətdə ittiham edilmiş faşist canini özünün qəhrəmanı adlandıra bilərmi? Erməni faşist və antisemit general Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi biabırçılıq, Holokost qurbanlarının xatirəsinin təhqir edilməsi deməkdir. Bu gün artıq gizli deyil ki, Ermənistanda faşizm ideologiyası, faşist Almaniyası ilə sıx əməkdaşlıq etmiş erməni faşist və nasistlərin qəhrəmanlaşdırılması dövlət səviyyəsində təbliğ edilir. Bu Cənubi Qafqaz ölkəsində faşizmin, antisemitizmin və neonasizmin populyarlaşdırılması dövlət siyasətinin tərkib hissəsinə çevrilib. Ən dəhşətlisi, ən hiddətləndiricisi odur ki, "Njdeizm" adlı faşist ideologiyası tədris müəssisələrinin proqramına daxil edilib və gənc nəsil bu "dəyərlər" ruhunda tərbiyə edilir. Faşist və antisemit general Qaregin Njdenin heykəlinin açılış mərasimində Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın və keçmiş müdafiə naziri Seyran Ohanyanın iştirak etməsi və üstəlik, Ermənistanın indiki baş naziri Paşinyanın Qələbə Günündə öz faşist-kollaborasionist babasının fotoşəklini paylaşması faktı bir daha onu təsdiq edir ki, Ermənistanın istər keçmiş, istərsə də indiki liderləri özlərini erməni faşist və antisemit Njdenin əsl və həqiqi varisləri hesab edirlər. Yəhudi xalqı İkinci Dünya müharibəsi dövründə 20 minlik erməni legionunun qəddarlığını heç vaxt unutmayacaq.



Bu legionu yaradanlardan biri faşist Njde olub. Arxiv sənədləri ilə təsdiqlənən tarixi faktlar var. General Njde başda olmaqla, erməni legionunun məqsədi yəhudiləri və alman ordusu üçün "yararsız olan" başqa xalqları məhv etmək idi. Məhz erməni legionunun sayəsində Simferopol, Yevpatoriya, Aluşta, Kerç və Feodosiya, habelə Qərbi Krımın digər rayonları yəhudilərdən tamamilə təmizlənmişdi. Bütün bunlardan sonra biz müasir Ermənistanda erməni faşist və antisemitin təriflənərək milli qəhrəman dərəcəsinə çatdırılmasına laqeyd qala bilərikmi? Müasir Ermənistanın bu siyasətini ləng mexanizmli bomba adlandırmaq olar, çünki bu ideologiya əsasında böyüyən gənclər gələcəkdə faşizm və terrorizm əməllərini davam etdirəcəklər". Hesab edilir ki, İsrail cəmiyyətində məsələyə bu tərz yanaşma fonunda İrəvan, çətin ki, Təl-Əvivlə istədiyi münasibətləri qura bilsin.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Ermənistan Dağlıq Qarabağda bütün tarix-mədəniyyət abidələrinə qarşı genosid aparır



**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Təkcə xalqlar deyil, abidələr də, tarix də, mədəniyyət də genosidə məruz qalır. Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Azərbaycan torpaqlarında abidələrimiz, tarixi şəhərlərimiz, maddi-mədəni sərvətlərimiz ermənilər tərəfindən genosid edilir.**

Bildiyimiz kimi, işğal altında olan ərazilərimizdəki abidələr ermənilər tərəfindən təcavüzə məruz qalıb, hətta onların əzəli tarixi adları kataloqlardan silinərək erməniləşdirilmiş adlarla əvəzlənib.

Alimlərin apardığı tədqiqatlar zamanı işğal olunmuş ərazilərdə xeyli sayda yeni material ortaya çıxıb. Belə ki, Dağlıq Qarabağ ərazisində qalan maddi mədəniyyət nümunələrimizə qarşı ermənilər tərəfindən vandalizm aktları həyata keçirilməkdə davam edir. Bunlar xüsusən müsəlman inanc yerləri ilə bağlıdır. Bu abidələrin kütləvi şəkildə dağıdılmasına başlandı. Azərbaycanın aidiyyəti QHT-ləri, vətəndaş cəmiyyəti müxtəlif dövrlərdə faktlarla bağlı beynəlxalq təşkilatlara müraciət edib. Lakin onların səsinə səs verən olmayıb.

Ermənilər tərəfindən dağıdılan məscidlərimiz, türbələrimiz, abidələrimiz məhv olub gedir. Qeyd edilənə görə, işğal altında olan torpaqlarımızdakı abidələrimizin sayı hazırda Azərbaycanda dövlət qeydiyyatında olan abidələrin sayından qat-qat çoxdur və bu, tədqiqatlar zamanı məlum olub. Həmin abidələrin sayı 3000-ə yaxındır. Təkcə Laçın rayonu ərazisində tarix-mədəniyyət abidələrini nəzərə alsaq, burada 275 abidə var, ermənilər isə orada 73 abidə olduğunu vurğulayırlar. Abidələrlə bağlı saysız pozuntu olduğunu deyən mütəxəssislər bildirirlər ki, bir çox abidənin tarixi saxtalaşdırılıb.

Ümumiyyətlə, işğal olunan ərazilərdə elə bir kənd, elə bir qəsəbə yoxdur ki, orada tarixi mədəniyyət abidəsi olmasın. Məsələn, Dağlıq Qarabağ ərazisində kifayət qədər çox, Kəlbəcər, Laçın ərazisində bütün rayonlardan daha çoxdur.

Qeyd edək ki, Laçın rayonunun işğalı nəticəsində 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 96 məişət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri, 13 min 745 yaşayış evi talan və məhv edilib, 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə erməni vandalizminə məruz qalıb.

Erməni işğalında olan Laçın ərazisində Turşsu, Qaladərəsi, Ağanus, Xırmanlar, Tiqiq, Turş-tiqiq, Nurəddin, Nağdalı, Hacıxanlı kimi müalicəvi əhəmiyyətli bulaqlar, zəngin meşələr, yaylaqlar var.

Azərbaycan dövlətinin 1961-ci ildə rayon ərazisində nadir təbiət komplekslərini qorumaq üçün yaratdığı Laçın Dövlət Təbiət Yasaqlığı 20 min hektar, 1987-ci ildə yaradılan Qaragöl Dövlət Təbiət Qoruğu isə 240 hektar ərazini əhatə edirdi. Qoruqda 68 növdən və 27 fəsilədən ibarət bitki örtüyü var idi.

Mütəxəssislər yazırlar ki, Laçın ərazisindəki 3 civə, əhəngdaşı, Qoçaz mərmərləşmiş əhəngdaşı, mişar daşı istehsalına yararlı 2 tuf, kərpic-kirəmid istehsalına yararlı Novruzlu gil, həmçinin, Quşçu pemza, Yuxarı Həkəriçay qum-çınqıl qarışığı, əqiq, 2 əlvan bəzək daşı, 3 vulkan külü və Minkənd mineral su yataqları 27 ildir ermənilər tərəfindən talan edilir.

Bu diyar tarixi-mədəni abidələrlə də olduqca zəngindir. Məsələn, IX əsrə aid Ağoğlan məbədi, XI əsrə aid Dəmrovlu Pir Məbədi, Cicimli kəndində XII əsrə aid Məlik Əjdər türbəsi, XVII əsrə aid Kar Künbəz türbəsi, 1761-ci ildə Soltanlar kəndində tikilmiş Həmzə Soltan sarayı, Quşçu kəndində Pir, Uşaq qalası, Şəlvə kəndində məbəd, Mirik kəndi ərazisində qala, Qaranlıq kaha, Bayqara mağaraları, Zeyvə kəndində Soltanbaba türbəsi, Güləbird kəndində Sultanbud məbədi, Minkənd kəndində Alban kilsəsi, X-XIX əsrlərə aid ikitağlı və birtağlı körpülər, Seyidlər kəndində birtağlı körpü, Pircahan körpüsü, orta əsrlərə aid sənduqə, qoç və at abidələri, dəmir və tunc dövrünə aid kurqanlar, qəbiristanlıqlar və onlarca digər məbəd erməni vəhşiliyinin qurbanına çevrilib. Rayondakı tarixi, mədəni və dini abidələrin bir çoxu dağıdılıb. Laçının 74 min nəfərə yaxın sakini isə artıq 28 ildir respublikanın 59 şəhər və rayonunda məcburi köçkün həyatı yaşayır.

Təəssüf ki, erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad olunması, ölkəmizin ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı barədə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə, eləcə də Qarabağ müharibəsi ilə bağlı Avropa İttifaqı, Avropa Şurası və digər beynəlxalq təşkilatların qəbul etdikləri qərarlar hələ də Ermənistan Respublikası tərəfindən yerinə yetirilmir.

Bir daha xatırladaq ki, erməni işğalından, eləcə də qəsbkar dövlətin törətdiyi terror və təxribatlardan zərər çəkmiş soydaşlarımızın hamısı dövlətin qayğısı ilə əhatə olunub.

Qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün davamı kimi 1992-ci il mayın 18-də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olmayan Laçın rayonu işğal edilib. İşğal nəticəsində Laçın rayonunun əhalisi etnik təmizləməyə məruz qalıb və hazırda 77 min nəfərdən artıq Laçın sakini Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün kimi yaşayır. Ermənistan tərəfindən rayonda dövlət və özəl mülkiyyətə ciddi zərər yetirilib. Belə ki, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan və məhv edilib.

Bildiyimiz kimi, burada 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalması azmış kimi, Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan edilib. Həmçinin, talan edilmiş Laçın Tarix Muzeyinin eksponatı olan gümüş əl çantası Londonda auksionda 80 min ABŞ dollarına satılıb.

Ermənistan işğalçı tərəf olaraq Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Laçın rayonunda coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, əsasən Suriyadan olan erməni əsilli qaçqınlar olmaqla, məqsədyönlü məskunlaşma siyasəti aparaq, demoqrafik tərkibin dəyişdirilməsi kimi qanunsuz əməllərini davam etdirir.

Avropa İnsan Hüquqları Məhkəməsi "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə Azərbaycanın Laçın rayonundan qovulmuş Azərbaycan vətəndaşlarının xeyrinə qərar qəbul edərək, onların İnsan Hüquqları və Fundamental Azadlıqların Qorunmasına dair Konvensiya üzrə mülkiyyət hüququ, şəxsi və ailə həyatına hörmət kimi hüquqlarının pozulduğunu təsbit edib. Həmçinin, qərarın 19-20-ci paraqraflarında Laçın rayonu, xüsusən Laçın şəhərinin hərbi hücuma məruz qalması, 1992-ci il may ayının ortalarında Laçının havadan bombardman edilməsi və bunun nəticəsində çoxlu sayda evin dağıdılması, şəhərin talan edilməsi və yandırılması, hərbi münaqişə dövründə Laçın və ətraf kəndlərin tamamilə dağıdılması öz təsdiqini tapıb.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ətraf rayonların Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, işğal olunmuş rayonların azərbaycanlı sakinlərinə qarşı etnik təmizləmənin törədilməsi Ermənistanın əsl niyyətinin hərbi təcavüz və işğal yolu ilə ərazi əldə edilməsi olduğunu qabarıq şəkildə nümayiş etdirir.

Ermənistanın kəskinləşən hərbi təcavüzü şəraitində BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə 822, 853, 874 və 884 saylı qətnamələri qəbul edərək, Azərbaycan ərazilərinin işğalını pisləyib, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edərək, işğalçı qüvvələrin zəbt olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edib. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini yerinə yetirməyərək, işğal olunmuş Azərbaycan ərazilərinin ilhaq edilməsinə (anneksiya) yönəlmiş siyasət yürüdür.

Ermənistan torpaqlarımızı işğal altında saxlayır, buradakı maddi mədəniyyət abidələrimizi talan edir və sərvətimizi xarici auksionlarda satır. Beynəlxalq qurumlar isə bu mənzərəni, sadəcə, seyr edirlər.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Kənd sektorunda subsidiyalaşdırmanın yeni qaydaları - Prezident fərmanı fermerləri nə qədər xərcdən azad edəcək...

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev 27 iyun 2019-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edib.**




***Nicat Nəsirli:** "Yeni qaydalara əsasən, indi müvəkkil bank seçiləcək və hər kəs həmin bank vasitəsilə kartdan vəsaiti çıxaracaq"*

Dövlət başçısının bunnla bağlı imzaladığı fərmana əsasən, edilmiş əlavəyə görə, kənd təsərrüfatı məhsullarının istehsalçılarına bitkiçilik və heyvandarlıq sahələri üzrə subsidiyaların ödənilməsi məqsədilə subsidiya məbləğləri köçürülən plastik kartların hazırlanması və göstərilən bank xidmətləri Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin müvəkkil bankla razılaşdırılmış sifarişi əsasında hər il dövlət büdcəsindən ayrılan vəsait hesabına həyata keçirilir.

"Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na edilən dəyişiklik barədə fikir bildirən aqrar sahə üzrə mütəxəssis Nicat Nəsirli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, 2007-ci ildən Azərbaycanda subsidiya proqramının tətbiqinə başlanıb. Onun fikrincə, ötən illər ərzində subsidiyalaşdırma sistemi kənd təsərrüfatının stimullaşdırılmasına təsir göstərib. Lakin bu müddətdə aqrar sahədə arzulanan keyfiyyət göstəricilərinin yüksəldilməsinə nail ola bilməmişik.

Ekspertin sözlərinə görə, Kənd Təsərrüfatı Nazirliyi "Subsidiya" informasiya sisteminin yaradılmasından sonra yeni qaydalarla subsidiyaların 2020-ci il yanvarın 1-dən etibarən verilməsi qüvvəyə minib. Subsidiya almaq üçün aqrar istehsalçılar mütləq "Subsidiya" informasiya sistemində (SİS) qeydiyyatdan keçməlidirlər. Bunu etməyənlərə subsidiya verilməyəcək. Fermerlər əkinə görə aldıqları subsidiyanın hamısını kartdan çıxara biləcəklər. İndiyə qədər fermerlərə kartın hansı bank vasitəsilə veriləcəyi bəlli deyildi. Elə bank var ki, onun bəzi kənd yerlərində filialı yoxdur. Yeni qaydalara əsasən, indi müvəkkil bank seçiləcək və hər kəs həmin bank vasitəsilə kartdan vəsaiti çıxaracaq. Beləliklə, fermerlər vəsaiti rahat şəkildə əldə edə biləcəklər".

***Günel CƏLİLOVA***

# Koronavirus dövründə iqtisadiyyata sərmayə qoyuluşuna görə Azərbaycan nisbətən yaxşıların sırasında - azalma cəmi 0,5 faiz...

**Bu ilin 4 ayında Azərbaycanda investisiya qoyuluşu azalıb. Belə ki, 2020-ci ilin yanvar-aprel aylarında əsas kapitala 3903,5 milyon manat məbləğində, yaxud 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,5 faiz az vəsait yönəldilib.**

*"Bu ilin birinci iki ayında iqtisadi inkişaf tempi o qədər yüksək olub ki, ötən 4 ayı cüzi sərmaye azalması ilə başa vurmuşuq"*

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu dövrdə neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 18,8 faiz artıb, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 12,8 faiz azalıb. İstifadə olunmuş vəsaitin 2622,3 milyon manatı və ya 67,2 faizi məhsul istehsalı sahələrinə, 875,2 milyon manatı (22,4 faizi) xidmət sahələrinə, 406,0 milyon manatı (10,4 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş vəsaitlərin 2338,3 milyon manatını və ya 59,9 faizini daxili vəsaitlər təşkil edib. Əsas kapitala yönəldilmiş vəsaitlərin 2383,2 milyon manatı və ya 61,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 62,0 faiz, büdcə vəsaitləri 21,0 faiz, əhalinin şəxsi vəsaitləri 6,6 faiz, bank kreditləri 5,7 faiz, büdcədənkənar dövlət fondlarının vəsaitləri 2,5 faiz, sair vəsaitlər isə 2,2 faiz təşkil edib.

Belə məlum olur ki, koronavirusun təsirlərinə baxmayaraq, bu ilin 4 ayında Azərbaycan iqtisadiyyatına qoyulan investisiyalar cüzi azalıb. Hansı ki, digər ölkələrdə bu, daha böyük rəqəmlərlə ölçülür. Bəzi ölkələrdə iqtisadiyyata qoyulan sərmayənin azalması dəfələrlə ölçülür.

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, indiki dövrdə iqtisadiyyata sərmayə qoyuluşunun cüzi azalması müsbət tendensiyadır: "Bunun bir sıra səbəbləri var. Məsələ ondadır ki, Azərbaycanın ötən ilin iqtisadi göstəriciləri çox uğurlu olub.

***Fuad İbrahimov:** "İndiki dövrdə iqtisadiyyata sərmayə qoyuluşunun cüzi azalması müsbət tendensiyadır"*



Bütün sahələrdə biz uğurlu dinamika əldə etmişik. Bu ilin əvvəlində də iqtisadi inkişaf aktiv dinamika ilə davam etdi. Nəticədə bu ilin yanvar və fevral aylarında iqtisadiyyata sərmayə qoyuluşu pozitiv səviyyədə oldu. Ancaq koronavirusla əlaqədar mart ayının ikinci dekadasından iqtisadiyyatda durğunluq özünü göstərdi. Bu təkcə bizim ölkədə deyil, bütün dünyada özünü göstərir.

Ancaq mart-aprel aylarında durğunluq olsa da, birinci iki ayda iqtisadi inkişaf tempi o qədər yüksək olub ki, ötən 4 ayı cüzi sərmayə azalması ilə başa vurmuşuq.

**İqtisadiyyatda koronavirusla əlaqədar durğunluq davam edərsə, o zaman may və iyun ayının göstəricilərində azalma daha çox özünü göstərəcək. Buna baxmayaraq, düşünürəm ki, yaxın gələcəkdə biz koronavirus pandemiyasından xilas olacağıq. Nəticədə ölkə iqtisadiyyatına qoyulan sərmayələr artacaq və ümumən ili müsbət göstəricilərlə başa vuracağıq".**

***Vidadi ORDAHALLI***

# Dolların yeni çöküşü nefti daha sürətlə bahalaşdırır - 50 dollarlıq həddi keçməsi mümkün sayıldı

**Dünya bazarında neft qiymətləri sürətlə artmaqda davam edir. Azərbaycanın da dünya bazarına çıxararaq satdığı xam neftin qiyməti 3,85 dollar, yaxud 11,75% artıb. Belə ki, "Azeri Light" markalı neftin bir barrelinin son qiyməti 36,62 dollar təşkil edib. Bu gedişlə neft qiymətlərinin ilin ilk yarısında 50 dollarlıq həddi keçməsi mümkün sayılır.**

Amma ABŞ iqtisadiyyatında baş verənlər və bunun dollara təsiri fonunda neft qiymətlərinin bahalaşmasının daha dinamik xarakter alması da istisna olunmur.

Məsələ burasındadır ki, ABŞ iqtisadiyyatında baş verənlərin dollara daha sarsıdıcı zərbə endirəcəyi okeanın o tayında da etiraf edilməkdədir. Bir çox amerikalı iqtisadçılar ABŞ iqtisadiyyatının qarşıdakı iki rübdə də vəziyyəti ilə bağlı bədbin proqnozlar verməkdə davam edirlər. ABŞ-ın Federal Ehtiyatlar Sisteminin rəhbəri Cerom Pauel bildirib ki, COVID-19 pandemiyasının nəticələrini aradan qaldırmaq üçün ABŞ-ın iqtisadiyyatına bir ildən çox vaxt tələb oluna bilər:"İndi böyük əzabəziyyətlər və çətinliklər dövrüdür. Bu dövr elə tez və güclü başladı ki, artıq insanların yaşadığı ağrıları və hiss etdikləri qeyri-müəyyənliyi sözlə ifadə etmək mümkün deyil". Pauel onu da əlavə edib ki, iqtisadi reabilitasiya son nəticədə amerikalıların COVID-19-un yaratdığı təhlükədən nə dərəcədə qoruna biləcəklərinə əminlikdən asılı olacaq. Məhşur "Project Syndicate" nəşri isə yazır ki, belə vəziyyət dünya miqyasında dolların da taxtını laxladır. Elə bu səbəbdən bir çox ölkələr ehtiyatlarında olan dolları başqa valyuta ilə əvəzləyir: "COVID-19 böhranının başlaması ilə bir tərəfdən ABŞ Federal Ehtiyat Sistemi, 2008-ci il qlobal maliyyə böhranı dövründə olduğu kimi, beynəlxalq maliyyədə lider rolunu öz üzərinə götürüb. Mart ayında Federal Ehtiyatlar Sistemi təxminən 14 xarici mərkəzi bankla ikitərəfli valyuta mübadiləsi sazişlərini bir daha canlandırıb və bir sıra pul orqanları üçün yeni satınalma imkanlarını təqdim edib. Bununla da ABŞ dollarının qlobal səviyyədə qarşılanması, likvidliyə ehtiyacları təmin olunub. Amerikanın Mərkəzi Bankı növbəti dəfə dünyanın son borcalma instansiyasına çevrilib. Digər tərəfdən, Amerika prezidenti Donald Tramp COVID-19-un ictimai sağlamlığa və iqtisadi fəaliyyətə təsirinə qarşı mübarizə aparmaq üçün beynəlxalq əməkdaşlığın lazımlığı fikrini məsuliyyətsiz şəkildə rədd edib. O, "Öncə Amerika" prinsipinə diqqətlə yanaşır ki, bu da başqa hökumətlərin hər hansı bir rəhbərlik iddiası üzərindən xətt çəkir. Fürsətdən yararlanaraq, Tramp administrasiyası, prezidentin öz dar sövdələşmə dünyagörüşü ilə müəyyənləşdirdiyi kimi, təkbaşına və yalnız "milli maraq" çərçivəsində hərəkət edəcəyini açıqlayıb. Ziddiyyətli şəxsiyyətin bu hərəkəti Amerika eyniyyətinin nümunəsi deyil və dünyanın dominant valyutası olan ABŞ dolları üçün də yaxşı əlamət sayılmır. Axı, beynəlxalq sərmayəçilər və xarici hökumətlər getdikcə daha etibarsız olan tərəfdaşın puluna niyə güvənsinlər?



Sözsüz ki, hazırda dollardan kütləvi şəkildə imtina risqi azdır. Federal Ehtiyatlar Sisteminin son hərəkətləri dollara olan tələbatın artmasına cavabdır. Bu, COVID-19 böhranında dolların son təhlükəsiz sığınacaq rolunu təsdiqləyir. Buna baxmayaraq, pandemiya başlamazdan əvvəl Tramp administrasiyasının gözlənilməz davranışına və ksenofob millətçiliyin zəhərli markasına görə investorların və mərkəzi bankların "sevilməyən dollar standartına" alternativ axtardıqları bəlli olub. Dünyada Trampın İran kimi ölkələri, eləcə də onunla iş görən hər hansı bir ölkəni, o cümlədən ABŞ müttəfiqlərini cəzalandırmaq üçün maliyyə sanksiyalarından qanunsuz istifadəsindən böyük narazılıqlar var. Beynəlxalq hesablaşmalarda dolların mərkəzi rolunu "silahlandırmaq"la Tramp çoxdan başqalarını cavab ətəşinə sövq edib. Xüsusilə Çin 13 trilyon dollarlıq daxili istiqraz bazarını xarici institusional investorlara tədricən açmaqla, yuanı dollara alternativ kimi təqdim etməkdə getdikcə daha çox fəallıq göstərir. Eynilə Avropa ölkələri ABŞ-ın İran neftinin ixracına tətbiq etdiyi sanksiyalardan yayınmaq üçün xüsusi hazırlanmış yeni bir mexanizmi işə salıb.Yaşıl əskinas da adlandırılan dollar onsuz da yavaş-yavaş "qan axıdır", pandemiya isə qaçılmaz olaraq yaranı daha da dərinləşdirəcək. Bu da, öz növbəsində, Amerikanın dünyadakı nüfuzuna və nəticədə ABŞ-ın qurduğu müharibədən sonrakı beynəlxalq nizama təsir edəcək.

Dolların ABŞ-ın qüdrətinə verdiyi töhfələr yaxşı başadüşüləndir. Dünyanın dominant valyutasının emitenti olaraq, Fransanın o vaxtkı maliyyə naziri Valeri Jiskar d'Estenin dediyi kimi, o "hədsiz imtiyaz"dır. Əcnəbilər dollarlara ac qaldıqları müddətdə ABŞ sadəcə mətbəənin işini sürətləndirməklə dünyadakı qüdrətini artıra bilər. Bundan əlavə, düşmənlərinə birbaşa təzyiq göstərə və dostlarına təsirini daha da artırar… Ancaq indi Trampın şıltaq davranışı və təcridçiliyə meyli ABŞ-ın geosiyasi gücünü əhəmiyyətli dərəcədə pozmaqla təhdid edir. Qüdrətinin azaldığı məlum olduqda dollar cazibəsini itirməyə başlayacaq: zəif dollar zəif ABŞ-dır. Həqiqətən, funt sterlinq XX əsrdə oxşar bir nümunəni izləyib.

Sterlinqin beynəlxalq nüfuzunu itirməsi İngiltərənin imperial gücdən qitə Avropasının sahillərində mötədil ada gücünə qədər yavaş-yavaş enişinin səbəbi idi. Dolların eyni növ mütərəqqi degenerasiyaya qarşı immuniteti yoxdur. ABŞ-ın və dolların iflası müharibədən sonrakı liberal nizamın əsas sütunlarından birini sıradan çıxaracaq. Çoxları üçün bu nizam ABŞ-ın geosiyasi dominantlığı ilə sinonim olub. Lakin ABŞ rəhbərliyi olmadığı təqdirdə, rəqabətqabiliyyətli siyasi modellər ön plana çıxır, millətçilik, populizm və "ədəbsiz demokratiyanın" müxtəlif zolaqlarını təbliğ edir. Amerikanın parçalanmış şəxsiyyəti yalnız amerikalılara təsir etməyəcək. Müharibə sonrası dollar mərkəzli nizamın aqibəti acınacaqlı görünür".

Hesab edilir ki, dollara inam zəiflədikcə, ABŞ valyutası ilə satılan məhsullar, o cümlədən neft sürətlə bahalaşacaq. Eynilə zəifləyən dollar milli valyutaların, o cümlədən manatın güclənməsinə rəvac verəcək. Ən əsası isə, dollar ətrafında indiki proseslər davam edərsə, dünya ona yeni alternativlər də axtarmalı olacaq.

***Ramil QULİYEV***

# Restoranlar açıldı - aşpaz və işçilərin koronavirus testindən keçmələri məsələsi hələ açıq qalır

**Nazirlər Kabineti yanında Operativ Qərargahın yeni qərarına əsasən, 18 may 2020-ci il saat 00:00-dan etibarən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə yerində xidmət saat 08:00-dan 18:00-dək bərpa olunur.**



Restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında xidmətlər pandemiya dövründə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan müvafiq sanitar-epidemioloji qaydalara və metodiki göstərişlərə uyğun həyata keçirilməlidir.

***Tahir Əmiraslanov:** "Restoranların işçi heyəti, xüsusilə aşpazlar və ofisiantlar hər 3 aydan bir koronavirus testindən keçməlidirlər"*

Maraqlıdır, karantin dönəmində restoran və kafelərdə çalışan aşpaz və digər işçilər koronavirus testindən keçirilərmi? Ekspertlər təklif edirlər ki, iaşə obyektlərində çalışanlar ayda bir dəfə koronavirus testindən keçsinlər.

Azərbaycanın Milli Kulinariya Mərkəzinin (AMKM) rəhbəri Tahir Əmiraslanovun sözlərinə görə, restoranların işçi heyəti, xüsusilə aşpazlar və ofisiantlar hər 3 aydan bir koronavirus testindən keçməli olacaqlar: "Bu, pulsuz aparılacaqsa, lap yaxşı. Amma müayinələr onların öz hesabına olsa, çətinlik yaranacaq. Nəzərə alsaq ki, onların mütəmadi qoruyucu vasitələr istifadəsi də tələb olunacaq, bu zaman, xüsusilə, günəmuzd çalışan işçilər bu şərtlərə əməl etməyə pul çatdırmayacaqlar. Bütün bunları qaydasına salmaq üçün iş aparılır".

*"...müayinələr onların öz hesabına olsa, çətinlik yaranacaq"*

Həmsöhbətimiz onu da əlavə etdi ki, restoran sistemi çox mürəkkəbdir. Kommunal xərcləri çoxdur. Ərzağa verilən pul restorana adam gəlməsə batır. İşçilər dağıldıqda həmin kadrların yenidən bir araya toplanması çətin prosesdir. Avadanlıqlar işləmədikdə yararsız hala düşür. Zəncirvari proses olduğuna görə bununla bağlı xüsusi qaydaların müəyyənləşməsinə ehtiyac var.

***Günel CƏLİLOVA***

# Bu il ali məktəblərə qəbul imtahanı bir dəfə keçiriləcək

**Nazirlər Kabineti "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nda aşağıdakı dəyişikliklər edib. "Trend"in məlumatına görə, əvvəlki qəbul zamanı qəbul imtahanları hər tədris ilində iki dəfə - yaz və yay sessiyaları şəklində keçirilir.**



Abituriyent hər sessiyada istədiyi ixtisas qrupu üzrə yalnız bir imtahanda iştirak edə bilərdi.

Yeni qərarda isə qəbul imtahanlarının hər tədris ilində iki dəfə - yaz və yay sessiyaları şəklində keçirilməsi ilə bağlı müddəa ləğv edilib.

Qərara edilən digər dəyişikliyə əsasən, abituriyent I-IV ixtisas qruplarının yalnız biri üzrə qəbul imtahanında iştirak edə bilər. Həmçinin, bu ixtisas qruplarından biri üzrə qəbul imtahanında iştirakından asılı olmayaraq, abituriyent V ixtisas qrupu üzrə də imtahanda iştirak edə bilər.

*Bakalavr və magistrlərin biliyinin qiymətləndirilməsi qaydaları dəyişdirildi*

Yeni qərarla qəbul imtahanını rus dilində verən abituriyentlər üçün Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə imtahanın davametmə müddəti də 1 saat 30 dəqiqədən 45 dəqiqəyə endirilib.

Nazirlər Kabineti "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nda da dəyişikliklər edib. Yeni dəyişikliyə əsasən, cari və aralıq qiymətləndirmənin ümumi nəticələrinə görə fənn üzrə müvəffəq qiymət almış tələbə həmin fəndən kreditləri qazanmış hesab olunur. Kreditləri müəyyən səbəblərdən qazanmayan (qazana bilməyən) tələbənin həmin fənn üzrə akademik borcu qalır. Akademik borcu yaranmış tələbəyə həmin fənn (fənlər) üzrə imtahan vermək (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla) və ya fənni (fənləri) yenidən dinləmək üçün şərait yaradılır.

Cari semestrdə müəyyən səbəbdən imtahanda (imtahanlarda) iştirak etməyən və (və ya) həmin semestrdə akademik borcu yaranmış tələbəyə növbəti semestrin dərsləri başlayanadək bir dəfə həmin imtahanı (imtahanları) vermək imkanı yaradılır. Əlavə olaraq tələbə hər bir semestrdə fənni (fənləri) dinləmədən akademik borcu əvvəlki semestrdə (semestrlərdə) yaranmış iki fənn üzrə (hər fəndən bir dəfə olmaqla) də imtahanda iştirak edə bilər.

Bütün hallarda imtahan verən tələbənin ümumi qiymətləndirilməsi zamanı onun fənni (fənləri) dinlədiyi semestrdəki cari qiymətləndirilmənin (aparıldığı halda) nəticələri nəzərə alınır və qazandığı kreditlər tədris planı üzrə həmin fənni (fənləri) dinlədiyi semestrə aid olunur.

# Gömrük Komitəsi saxta video yayımlayan KİV-i qınadı - sübut tapılmadı

**Dövlət Gömrük Komitəsi Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin məlumatına görə, ötən gün bir sıra kütləvi informasiya vasitələri tərəfindən Ermənistanda istehsal olunan siqaretlərin ölkə ərazisində satıldığına dair video yayımlanıb.**

Həmin videonu qeydə alan, kimliyi barədə hər hansı məlumat verilməyən şəxs Sabirabad rayonundakı mağazalardan birindən Ermənistan istehsalı olan siqaret aldığını iddia edir və tütün məmulatının ölkə ərazisinə gətirilməsinə görə gömrük orqanlarını günahlandırır.

DGK bəyan edir ki, bir sıra media qurumları Dövlət Gömrük Komitəsinin rəsmi münasibətini öyrənmədən videonu yayımlayıb, üstəlik müvafiq cavab hazırlanması üçün araşdırma aparılması məqsədilə videonu qeydə alan şəxs barədə gömrük orqanlarına informasiya verməkdən imtina edib. Buna baxmayaraq, DGK-nın aidiyyəti qurumları tərəfindən Sabirabad və ətraf rayonlardakı mağazalarda, topdan və pərakəndə satış məntəqələrində aparılan ciddi araşdırma zamanı Ermənistan istehsalı tütün məhsullarının satışı aşkar edilməyib.

Dövlət Gömrük Komitəsi bir daha bildirir ki, Ermənistanla ölkəmiz arasında hər hansı ticarət əlaqəsindən söhbət gedə bilməz və bu ölkədə istehsal edilən məhsulların ölkə ərazisinə gətirilməsi qəti qadağandır. Qeyd edək ki, Komitənin müvafiq qurumları bu barədə mütəmadi məlumatlar yayır və Ermənistan mənşəli məhsulların gömrük-keçid məntəqələrində aşkar olunaraq məhv edilməsi barədə ictimaiyyət mütəmadi olaraq məlumatlandırılır.

Dövlət Gömrük Komitəsi bir daha bütün media qurumlarını məlumat yayımlayarkən diqqətli olmağa, qarşı tərəfin rəyini öyrənmədən həqiqətə uyğun olmayan, rəsmi təsdiqini tapmayan iddiaları dərc etməməyə çağırır. Yalan və böhtan xarakterli məlumat yayanlar bilməlidir ki, yaydıqları həqiqətə uyğun olmayan məlumata görə özləri də qanun qarşısında məsuliyyət daşıyırlar. Gömrük orqanlarını Ermənistanın istehsal etdiyi məhsulları ölkəmizə buraxmaqda günahlandıran şəxslər isə vicdanları qarşısında məsuliyyətli olsunlar. Əgər vicdanları varsa…

***Baki-xeber.com***

# Metropolitendə kütləvi virusa yoluxma təhlükəsi gedərək artır - sosial məsafə gözlənilmir, fiziki təmaslar çoxalır...

## *İlqar Hüseynli: "...tələbləri bir qədər sərtləşdirməliyik və başqa mümkün variantlar üzərində düşünməliyik"*

**Azərbaycanda sərt karantin rejiminin yumşaldılması nəticəsində SMS icazə sisteminin ləğv edilməsi vətəndaşların daha çox şəhərə çıxmasına, ictimai nəqliyyatdan, xüsusən də metrodan istifadəsinin genişlənməsinə səbəb olub.**

İnsanların kütləvi şəkildə metrodan istifadə etməsi bir sıra yeni problemlərin yaranmasına gətirib çıxarıb. Bu, hər şeydən əvvəl, koronavirusun yayılma təhlükəsi ilə bağlı xeyli risq yaradıb.

Yaxşı bilirik ki, vətəndaşlar "karantin rejimi yumşaldılıb" fikri ilə artıq metro qatarlarında sosial məsafəni gözləmək istəmir, eyni zamanda, çoxu maskadan istifadə etməyin artıq bir şey olduğunu düşünür. Əslində isə onların bu məsuliyyətsizliyi daha böyük fəsadlara səbəb ola bilər.

Metropolitendən rəsmən bildirilib ki, karantin qaydalarına nəzarət çətinləşib. "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov mətbuata bildirib ki, ilk həftə ərzində sərnişinlərin sayı xeyli az olduğu üçün sosial məsafəni saxlamaq çox rahat idi.

O qeyd edib ki, sərnişin sayının artması metropolitendə insanlar arasında sosial məsafənin qorunmasını bir qədər çətinləşdirib: "Mayın 9-dan metropoliten öz fəaliyyətini bərpa edib. Həmin həftə sərnişinlərin sayı o qədər az idi ki, hətta iki metrdən daha artıq sosial məsafə saxlamaq olurdu. Lakin vətəndaşların yaşayış yerlərini SMS icazə vasitəsilə tərk etmələrinə dair qadağa ləğv olunduqdan sonra metropolitendən istifadə edənlərin sayı artıb.

Bu da, təbii olaraq, sərnişinlər arasında karantin qaydalarına nəzarəti bir qədər çətinləşdirir. Ümumilikdə, nisbətən artım müşahidə edilsə də, bu artım metronun normal günlərdə gündəlik sərnişin sayından çox deyil. Çünki bizim sərnişinlərimizin çoxunu tələbələr təşkil edirdi.

Hər halda, sosial məsafənin qorunması və tibbi maskaların taxılması zəruri olaraq qalır. Sərnişinlərin tibbi maskaları çıxarıb ciblərinə qoymamaları, qatarlarda oturacaqlara qoyulan işarələrə əməl etmələri xahiş olunur" - deyə o vurğulayıb.



*"...onlardan metroya maska ilə daxil olmağı tələb etmək vacibdir"*

Sosial sahə üzrə tanınmış ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, ümumiyyətlə, açılımlarla bağlı dünyada baş verən tendensiyalara fikir vermək lazımdır. "Demək olar ki, əksər ölkədə oxşar ssenarilər həyata keçirilir. Xüsusən də vətəndaşların sosial məsafə saxlamaq məsələsi çox ciddi bir problemdir. Yəni burada dövlət orqanlarının, xüsusilə Operativ Qərargahın rəyi ondan ibarətdir ki, baxmayaraq biz yumşalma prosesinə başlamışıq, amma yenə də karantin qaydalarına əməl etmək lazımdır. Bu, cəmiyyətə və vətəndaşlara verilən bir mesajdır. Birbaşa bu proses vətəndaşların özlərinə, cəmiyyətə şüurlu münasibətilə bağlı məsələdir. Sözsüz, uzun müddət evdə qalmaq, davamlı şəkildə maskadan istifadə etmək xüsusən də havaların istiləşdiyi bir vaxtda mümkünsüzdür. Bu, insanlara bir qədər çətindir. Bu prosesi davamlı olaraq nəzarətdə saxlamaq yenə də dövlətin əlaqədar qurumlarının, o cümlədən də metropolitenin işidir. Çünki bu məsələdə zoraki metodların tətbiqi də mümkünsüzdür. Bu mənada, şübhəsiz ki, bunu taleyin ümidinə də buraxmaq olamaz. Əgər hələ də pandemiyanın risqləri qalırsa, burada davamlı olaraq vətəndaşlara çağırışlar edilməli və maarifçilik işi daha da gücləndirilməlidir. Maarifçilik işləri aparılır. Amma bir qədər çətin situasiyadır. Çətinlik ondan ibarətdir ki, vətəndaşların bir qismində koronavirusla bağlı inamsızlıq var, bir sıra insanlar isə belə hesab edirlər ki, ümumiyyətlə, belə bir virus olmayıb, bu, hansısa sosial-siyasi, iqtisadi tənzimlənmələr üçün dünyada həyata keçirilən bir aksiyadır. Bu virusa fikirlər, baxışlar müxtəlif olduğuna görə insanların da yanaşması müxtəlif cürdür. Bu mənada, biz çağırışlarımızı davam etməliyik, tələbləri bir qədər sərtləşdirməliyik və başqa mümkün variantlar üzərində düşünməliyik. Bununla məqsədimizə nail ola bilərik, yoxsa, insanlara qarşı hansısa zorakılıq tətbiq etməklə buna nail ola bilmərik" - deyə İ.Hüseynli qeyd etdi.

İ.Hüseynli vurğuladı ki, əhalinin karantin rejiminin mövcud qaydalarına əməl etməsi üçün "nə etməliyik" sualının dəqiq cavabını heç ekspertlər də bilmirlər. O qeyd etdi ki, qapanmalar mümkünsüz, açılımlar labüddür. "Əgər bu qədər iş yerinin, ictimai iaşə obyektinin açılması ilə bağlı qərar varsa, insanların daşınması üçün nəqliyyat xidmətləri ilə təmin olunması birmənalı şəkildə vacib amillərdən biridir. Bilirsiniz ki, insanların ən çox istifadə etdiyi nəqliyyat növü metrodur və metro da sərnişindaşıma ilə pul qazanır, bununla da xərclərinin qarşılanmasını həyata keçirir. Bu mənada, biz metropolitenin və digər ictimai nəqliyyat növlərinin fəaliyyətini daimi olaraq dayandıra bilmərik. Bu məsələdə ən doğru yanaşma ondan ibarətdir ki, vətəndaşların özləri ilə mütəmadi işləmək, insanları yalnız müəyyən maarifləndirmə, təbliğat yolu ilə başa salmaq lazımdır. Eyni zamanda da maskasız metroya daxil olan sərnişinlərin girişini məhdudlaşdırmaq və onlardan metroya maska ilə daxil olmağı tələb etmək vacibdir" - deyə İ.Hüseynli bildirdi.

***İradə SARIYEVA***

№ 81 (4212) ■ Qiymətı: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

20 MAY 2020-ci il



# Alimlər "ağıllı" qurğuların məlumatlarının şifrələnməsi sxemini yaradıblar

**Rusiya alimləri "ağıllı" qurğuların məlumatlarının şifrələnməsi sxemini yaradıblar. Məqsəd bu qurğuların ötürdüyü informasiyanı başqasının ələ keçirməsindən qorumaqdır.**

AZƏRTAC bildirir ki, bu barədə Rusiyanın Cənubi Ural Dövlət Universiteti məlumat yayıb. Ali təhsil müəssisəsinin məlumatına görə, "ağıllı" qurğular arasında kommunikasiya prosesinin bədxahlar tərəfindən ələ keçirilməsi risqi böyükdür. Məsələn, "ağıllı" elektrik sayğacı evdə işığın nə zaman yandırıldığı və söndürüldüyü barədə informasiya verə bilər. Onu təhlil edən pis niyyətli şəxs ev sahiblərinin mənzildə olmadığı vaxtı müəyyənləşdirər və mənzilə soxula bilər. Məlumatda bildirilir ki, təhdidlər daha miqyaslı və ciddi ola bilər. Buna görə də mütəxəssislər IoT-un (Əşyaların interneti) etibarlı infrastrukturunun layihələndirilməsi üzərində işləyirlər. O, informasiyanın itirilməsi, sistemin xarab olması barədə xəbərdarlıq etməli, məlumatların təhlükəsizliyinin pozulmasının qarşısını almalıdır ki, bütün bunları əvvəlcədən görə bilmək çətindir. Məqsədə çatmaq üçün bir qrup alim məlumatları şifrələmə və "Əşyaların interneti" qurğularından qoruma variantını təklif edib. Sxemin işlənib hazırlanmasında Cənubi Ural Dövlət Universiteti Ali elektronika və kompyuter elmləri məktəbinin alimləri, həmçinin, onların Rusiyadan, Çindən və Meksikadan olan həmkarları iştirak ediblər. Yeni sxemdə məlumatlar bir "buludda" toplanmayacaq. Bu sxem verilənlərin hissələrini müxtəlif sahiblərə məxsus "bulud saxlamalarına" yerləşdirməyə imkan verəcək. Hətta verilənlərin bəzi hissəsini ələ keçirən şəxs həmin hissələrin yığımından informasiyanı əldə edə bilməyəcək. Nasazlıq nəticəsində verilənlərin bir hissəsi tamamilə itsə belə, yeni sxem digər saxlama obyektinə göndərilmiş hissələrdən məlumatları bərpa edə bilər. Alimlər nasaz şəraitdə, habelə parametr dəyişikliyində bu sxemi yoxlamağı planlaşdırırlar.

# Ən çox milyarder hansı ölkənin payına düşür?

**Hurun Tədqiqatlar İnstitutu 2020-ci il üçün ən zəngin milyarderlərin yaşadığı ölkələrin siyahısını dərc edib.**

Belə ki, "Hurun Global Rich List 2020"nin hesabatına görə dünyada cəmi 2816 milyarder var. Bu, keçən illə müqayisədə 346 nəfər artım deməkdir. "Bizplus.az" bildirir ki, illik hesabata əsasən, milyarderlərin sərvəti 16% artıb və 11,2 trilyon olub. Reytinqdə 10-cu yeri Fransa tutur. Burada 51 milyarder yaşayır. Milyarderləri bura cəlb edənsə ölkədəki rahat həyat şəraiti və güclü iqtisadiyyatıdır. Onun ardınca Tayland gəlir. Burada 57 milyarder yaşayır. Tayland əsasən elektronika və kompyuter texnikası dəstləri ixrac edir. Braziliyada isə 69 milyarder yaşayır. Buranın sənayesi çox yüksək inkişaf edib. İsveçrə də reytinqə yüksək həyat şəraitinə görə milyarderlər tərəfindən seçilən ölkə kimi düşüb. O, yeddinci yerdədir və burada 88 milyarder var. 6-cı yeri Rusiya tutub. Ölkənin zəngin təbii sərvətləri var və onun payına düşən milyarder sayı 91-dir. Böyük Britaniya beşliyə daxildir. Burada 119 milyarder yaşayır. Güclü inkişaf etmiş iqtisadiyyata malikdir. Almaniya isə 112 milyarderlə 4-cü yerdə qərarlaşıb. Ölkənin sənayesi və iqtisadiyyatı yaxşı inkişaf edib. Üçlüyə daxil olan Hindistanda 137 milyarder var. Son zamanlar bu ölkədə iqtisadiyyatın sürətli inkişafı özünü göstərir və bu da milyarderləri bura cəlb edib. İkinci yerdə ABŞ qərar tutub - 626 milyarder. Bura ənənəvi olaraq milyarderlərin sevimli ölkələrindən biri hesab olunur. Güclü iqtisadiyyatından əlavə, ABŞ bir çox göstəriciyə görə dünya liderlərindəndir. Reytinqə başçılığı Çin edir. Burada 799 milyarder yaşayır. O, dünyanın həm də öndəgedən iqtisadi güclərindəndir.


## Elan

Xuduyev Həsən İslam oğlunun adına, Bakı şəhəri, Xətai rayonu, Corat küçəsi, ev 6/12 fərdi yaşayış sahəsinin qeydiyyat vəsiqəsi və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

"Sirr-M" MMC-yə məxsus, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekspertiza İdarəsi tərəfindən verilmiş 01252 nömrəli Dağ-mədən ayırması aktı və "Dağ-mədən ayırması" sahəsinin künc nöqtələrini "Sığaçala-qırmadaş yatağının markşeyder planı itdiyi üçün etibarsız sayılır.






**Qoç** - Bu günün emosional fonu müsbətdir, əhvalınız yaxşıdır, hətta ən ağır anlarda da nikbinliyi itirmirsiniz. Yeni tanışlıqlar asan başa gəlir, işgüzar danışıqlar məhsuldar alınır. Sizin qarşınızda geniş imkanlar açılır.



**Buğa** - Günün birinci yarısını mühüm işlərə, ikinci yarısını isə ikinci dərəcəli işlərə həsr etsəniz, yaxşıdır. Təcrübəli həmkarlarınızın tövsiyələrinə bel bağlaya bilərsiniz. Siz başqalarının səhvlərindən öyrənirsiniz, özünüz səhv etmirsiniz.



**Əkizlər** - Gün maliyyə cəhətdən yaxşıdır. İstədiyiniz qədər pul xərcləyə bilərsiniz. Ev əşyaları, paltar, kosmetika və parfümeriya əşyaları ala bilərsiniz. Axşam romantik görüşlər üçün münasibdir.



**Xərçəng** - Sənədlərin qeydiyyatı ilə məşğul ola və dövlət idarələrini ziyarət edə bilərsiniz. Köhnə münaqişələrin və hüquqi məsələlərin həlli üçün uğurlu bir gündür. Bürcün tənha nümayəndələrini maraqlı tanışlıqlar gözləyir.



**Şir** - Vacib işlərə diqqəti cəlb etmək üçün sakit bir gündür. Uğurlarınız göstərdiyiniz səylərə bərabərdir. Ola bilər ki, vacib informasiya əldə edəsiniz və bunun vasitəsilə rəqiblərinizi zərərsizləşdirəsiniz.



**Qız** - Çətin tapşırıqlardan qorxmayın, bu gün həmin tapşırıqların öhdəsindən gəlmək çətin olmayacaq. Rəqibləriniz görülməyən bacarıq nümayiş etdirsələr belə, siz asanlıqla onlardan öndə olmağı bacaracaqsınız.



**Tərəzi** - Bu gün həm sınaqlar, həm də qabiliyyətlərlə yadda qalacaq. Əsas odur ki, düzgün istiqamət tutasınız və uğura olan inamınızı itirməyəsiniz. Çox işləməli olacaqsınız, ancaq buna dəyəcək.



**Əqrəb** - Gün maraqlı, lakin xeyri olmayan tanışlıqlarla da bağlıdır. Mükəmməl yumor hissiniz düşdüyünüz çətin vəziyyətlərdən çıxmaqda sizə yardımçı olacaq. Səmimi münasibətlər yaxınlarınızla əlaqələrinizin qorunmasına kömək olacaq.



**Oxatan** - Yaranan problemlər sizi qorxutmur. Səy göstərmək tələb olunsa da, həmin probemləri həll edirsiniz. Ən yaxşı köməkçiləriniz gənclər olacaq. onların ruh yüksəkliyi və nikbinliyi sizə də keçir.



**Oğlaq** - Vaxtında inadkarlıq göstərirsiniz, güclü və taktiki bir şəkildə öz maraqlarınızı qoruyursunuz. Nəinki münaqişələri yoluna qoymaq, həm də əvvəllər dil tapmadığınız adamlarla dil tapmaq asanlaşır.



**Dolça** - Siz çox danışırsınız, lakin öz sirlərinizi açmırsınız. Bu da qarşı cinsin nümayəndələrinin sizə qarşı marağını artırır. Romantik və davamı olan maraqlı tanışlıqlar da ola bilər.



**Balıqlar** - Xoş və rahat bir gündür. İstənilən vəziyyətdə özünüzü rahat hiss edirsiniz. Nüfuzlu adamlarla söhbət zamanı da mənəvi tarazlığı itirmirsiniz. Gün imtahan, işgüzar görüşlər və iş yerinin dəyişdirilməsi üçün də uğurludur.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

# Alim koronavirusun gizli tərəflərini açıqladı

**Rusiya Elmlər Akademiyasının akademiki, tibb elmləri doktoru Armais Kamalov koronavirus infeksiyasının digər xəstəliklərdən fərqlənməsi və həddən artıq yoluxucu olmasını izah edib.**

"Milli.Az" xəbər verir ki, akademik infeksiyanın oxşar tənəffüs xəstəliklərindən çox fərqləndiyini qeyd edib. Onun sözlərinə görə, həkimlər hələ də bəzi xəstələrin bir neçə gün yüksək hərarətdən sonra tez sağalmasının, digərlərində isə xəstəliyin uğurlu müalicə kursundan bir müddət sonra virusun kəskinləşməsinin səbəblərini başa düşmürlər. "Bu infeksiya elm adamları və həkimləri sanki çarxa salıb. Artıq bunu başa düşməyə və hiss etməyə başlayırıq. Xroniki xəstəliklərin olması və immun sisteminin vəziyyəti xəstəliyin gedişatına təsir edir", - deyə Armais Kamalov bildirib. Ekspert qeyd edib ki, güclü immunitet, bir növ, insanın daxili pasportudur: "Şəkərli diabet, ürək və damar xəstəlikləri, bronxlar və ağciyər xəstəlikləri olan xəstələr risq altındadır, ancaq koronavirusun necə davranacağını təxmin etmək hələ də çətindir. Bu, onun əsas və ən təhlükəli xüsusiyyətidir. Çoxunda xəstəlik yüngül keçir. Və düşünürsən ki, bu xəstəlik niyə bu qədər qorxuludur? Digərlərində çox sürətlə irəliləməyə və ağciyər toxumasına təsir göstərməyə başlayır. Bu da həkim personalında bir çox sual doğurur. Həkimlər müalicəni hər bir xəstə üçün fərdi olaraq təyin edirlər".

*Hazırladı: Namiq QULİYEV*


Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.